Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

BAKI XƏBƏR

www.baki-xeber.com

28-30 SENTYABR 2019-cu il

№ 173 (4071)

Qiyməti 40 qəpik

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur

# ERMƏNİSTANDA DƏHŞƏTLİ XAOS - PAŞİNYANIN REYTİNQİ 25 FAİZ HƏDDİNDƏ, KEŞİŞLƏR «DİZ ÇÖKMƏYƏCƏKLƏR»...

■ səh. 6 ■

Azərbaycan PUA-ları düşmənin "yuxusunu qaçırıb" ■ səh. 8 ■

Erməni politoloqlar da bunu deyir - Bakı-Moskva münasibətlərinin indiki vəziyyəti Azərbaycanı çox güclü mövqelərə çıxarır ■ səh. 9 ■

Ali Məhkəmə ölkənin ən radikal sayt və TV-ləri üçün yeni fəaliyyət şansı açır ■ səh. 4 ■

"Azərbaycan Xalq Hərəkatı"nda tək Mirmahmud Mirəlioğlu qaldı... ■ səh. 5 ■

Hay qəbilə-tayfa sürüsünün Afrika keçmişi... ■ səh. 11 ■

"Semaşko" xəstəxanasında böyük maliyyə qalmaqalının əsl mahiyyəti... ■ səh. 13 ■

Azərbaycanda gənc ailə nikahları harada kəsilir? - Rusiyada maraqlı təcrübədən istifadə etməyə başlayıblar ■ səh. 14 ■

Uşaqlarda pəncə yerişi defekti kütləviləşir ■ səh. 15 ■



■ səh. 7 ■

## Paşinyan BMT tribunasında Qarabağ münaqişəsinin mahiyyətini tam təhrif etdi - Dünya həmsədrlərin reaksiyasını gözləyir...





Radikal müxalifət kütləvi aksiyalar üçün niyə məhz Bakının mərkəzi meydanlarını istəyir... ■ səh. 5 ■

Biabırçı tarix dərslikləri, iddialı müəllif və ya bir daha «Qarabağ tarixi» kitabı barədə... ■ səh. 12-13 ■

London məhkəməsi Zamirə Hacıyevanın ekstradisiyasında çox ciddi əsasları nəzərə almadı... ■ səh. 4 ■

■ səh. 3 ■ Fransa məhkəməsi daha iki şəhərin qondarma "DQR"lə qardaşlaşmasını ləğv etdi



■ səh. 3 ■ Paşinyan BMT-də dünya politoloqlarını şoka saldı - "strateji qonşu" termini varmı?



■ səh. 10-11 ■ Xatirə Kitabı Redaksiyası daha bir şəhid haqqında kitab hazırladı - Xəqani Əkbərov...



■ səh. 14 ■ Azərbaycanda yeni bal brendi - "9 iqlim"...



■ səh. 15 ■ Binə qəsəbəsində zibil dəhşəti...



## Şabranda yol tikintisinə 12 milyon manat ayrıldı

**Prezident İlham Əliyev Şabran rayonunun Surra-Düz Bilici-Qorğan-Çinarlar avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında sərəncam imzalayıb.**

Sərəncamda qeyd edilir ki, 4 min nəfər əhalinin yaşadığı 9 yaşayış məntəqəsini birləşdirən Surra-Düz Bilici-Qorğan-Çinarlar avtomobil yolunun tikintisi məqsədilə Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulmuş vəsaitin 12 milyon manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin edəcək.

Nazirlər Kabinetinə tapşırılır ki, bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

## Azərbaycan dünyanın 20 ən islahatçı ölkəsi sırasında...



**Azərbaycan "Doing Business 2020" reytinqində islahatçı ölkələr arasında ilk iyirmilikdə yer alıb. "Trend" bu barədə Dünya Bankına (DB) istinadən məlumat verir.**

DB ekspertlərinin fikrincə, Azərbaycanda 4 sahədə bizneslə məşğul olmaq daha da asanlaşıb: daşınmaz əmlakın qeydiyyatı, kreditlərin alınması, minoritar investorların müdafiəsi, müqavilə intizamı: "Daşınmaz əmlakın qeydiyyatı prosesi rəsmi xəritənin tərtib olunması və Bakıda hər bir özəl torpaq sahəsinin qeydiyyatı, mövcud sənədləşmənin təkmilləşməsi və daşınmaz əmlak sahəsində prosedurların sürətləndirilməsi nəticəsində sürətlənib. Minoritar investorların müdafiəsi tərəflər arasında bağlanmış əlverişsiz sazişlərə görə məsuliyyətin direktorların üzərinə qoyulmasından sonra möhkəmlənib".

Analitiklərin fikrincə, indi kommersiya mübahisələri yarandıqda tərəflər məhkəməyə müraciəti onlayn doldura bilir və vasitəçilik fəaliyyətinin icra olunmasına görə maliyyə stimulları ala bilir.

## Pakistandan Hindistana üstüörtülü nüvə təhdidi... "Kəşmir problemi həll olunmasa nəticəsi nə olacaq?"

**Hindistanın Baş naziri Narendra Modinin Nyu Yorkda 20 sektordan 42 qlobal sənaye nəhənginin yer aldığı xüsusi bir iclasa rəhbərlik etməsi və ölkəsinə daha çox investisiya cəlb etmək səyləri Kəşmir məsələsində problem yaşadığı Pakistanın Baş naziri İmran Xanın sərt reaksiyasına səbəb olub.**



Baki-xeber.com xəbər verir ki, İmran Xan Nyu Yorkda keçirdiyi mətbuat konfransında Hindistan bazarına maraq göstərən ölkələrə müraciət edib. "Hindistanı milyard adamlıq bir bazar kimi düşünməyin. Hindistanın bir nüvə gücü ilə (Pakistan) problemi var. Kəşmir problemi həll olunmasa nəticəsi nə olacaq? Milyardlarla dollarlıq sərmayəniz necə olacaq?" - Xan deyib. Xanın bu açıqlaması dünya mətbuatında "üstüörtülü nüvə təhdidi" kimi təqdim edilib. Nyu Yorkda keçirilən BMT Baş Assambleyasının 74-cü iclasında çıxış edən Xan beynəlxalq ictimaiyyəti iqtisadi səbəblərə görə tərəf olmaqda günahlandırıb. "Bu laqeydliyin səbəbini bilirəm. Niyə cənab Modiyə təzyiq olmadığını bilirəm. Çünki Hindistan üzərindən 1,2 milyard əhalisi olan bir bazara baxırlar" - Pakistanın Baş naziri deyib.

## İrandan ABŞ-a təhdid... "İraq və ya dünyanın harasında olursa-olsun, ABŞ-ı vuracağıq"

**ABŞ-a İrana hücum edəcəyi təqdirdə eyni şəkildə cavab veriləcək. Baki-xeber.com xəbər verir ki, bunu İranın Bağdaddakı səfiri İrc Məscid deyib.**

"Birləşmiş Ştatlar İran İslam Respublikasına hücum edərsə, biz də sərt şəkildə cavab verəcəyik. İraq və ya dünyanın harasında olursa olsun, ABŞ qüvvələrinə hücum edərik" - səfir deyib. Məscid ABŞ-ın İraqda olmasını qəbul etmədiklərini də deyib: "Amerikalılar İraqın və bölgədəki hər kəsin daxili işlərinə qarışırlar. ABŞ qüvvələrinin İraq və bölgədəki bütün nöqtələrdən çıxarılması lazımdır. Onların varlığı gərginliyi artırır və təhlükə yaradır".

# Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Fransa səfirliyində sabiq Prezident Jak Şirakın vəfatı ilə əlaqədar başsağlığı veriblər

**Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva sentyabrın 27-də Fransa Respublikasının ölkəmizdəki səfirliyinə gələrək, Fransanın sabiq Prezidenti, görkəmli dövlət xadimi Jak Şirakın vəfatı ilə əlaqədar başsağlığı veriblər.**

Azərbaycan Prezidentinin rəsmi saytının xəbərinə görə, dövlət başçısı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Fransanın sabiq Prezidenti Jak Şirakın vəfatı ilə əlaqədar başsağlığı verib, matəm kitabına ürək sözlərini yazıblar.



# BMT-nin Baş katibi Paşinyanla söhbətdə prinsipsizlik göstərdi...

**"BMT-nin Baş katibi Paşinyanla söhbətdə prinsipsizlik göstərdi..." Bu sözləri politoloq Aydın Quliyev özünün facebook səhifəsində yazıb. Bu ali beynəlxalq qurumun növbəti dəfə özünün nizamnaməsinə belə zidd mövqe sərgiləməsindən təəssüfləndiyini bildirən A.Quliyev daha sonra yazır:**



"Paşinyanın Baş nazirlik dövründə BMT-də yalan və saxtakarlıq dolu ikinci çıxışını da eşitdik. Ötən il 73-cü sessiyada da belə yalan dolu çıxış etmişdi .Onun birinci çıxışının BMT çərçivəsində nisbətən diqqət cəlb edə bilmək ehtimalı ona görə var idi ki, Paşinyan böyük hay-küy və vədlərlə gəldiyi üçün hələ nə dünya, nə də öz xalqı onu yaxşı tanıyır, nəyə qadir olduğunu bilmirdilər. Danışdığı Qarabağ yalanlarının fərqinə varmadan danışır, kimlərisə inandırdığını düşünərək dil qəfəsə qoymur. Ondan əvvəlki Serj Sarkisyan da eynən belə idi, abır-haya bilmədən yalanı yalana calayırdı. 2015-ci ildə onun BMT Baş Məclisindəki çıxışı yəqin xatırlanır. Bu sessiya ərafəsində Qazaxda təxribatla neçə Azərbaycan hərbçisinin həyatına son qoysa da, öz torpağını qorumaq vəzifəsini icra edən azərbaycanlı gəncləri utanmadan təxribatçı adlandırmışdı. Doğrudur, bizimkilər tərəfindən dərsini tutarlı şəkildə aldı. Bu dəfə isə Paşinyanın dərsini Hikmət Hacızadə necə lazımdırsa verdi. Ancaq onlar yenə danışırlar və hələ bundan sonra da danışacaqlar. Çünki...

**Çünki Paşinyanın cavabını ilk növbədə Baş katib Qutteres verməlidi idi... Halbuki, Paşinyanla görüşdə onun demokratiya nağıllarına çox lüzumsuz və rüsvayçı formada dözümlü yanaşdı. Bircə kəlmə soruşmadı ki, Paşinyan, bizim Təhlükəsizlik Şurasının Qarabağ barədə 4 məşhur qətnaməsini 26 ildir niyə icra etmirsiniz?! Qutteres də BMT-nin nüfuzunu Paşinyanın ayaqlarının altına atdı...Təəssüf..."**

# Paşinyan politologiya elminə əcaib və anlaşılmaz termin gətirdi...

**Politoloq Aydın Quliyev Ermənistanın Baş naziri Nikol Paşinyanın BMT tribunasından etdiyi çıxışa şərh verib. Özünün facebook səhifəsində o yazır:**

"Bu günlərdə BMT Baş Məclisinin 74-cü sessiyasında Ermənistanın Baş naziri Nikol Paşinyanın çıxışını oxüdüm.

Başdan-ayağa Qarabağ probleminin mahiyyətini saxtalaşdlran bir çıxışdı. Bu sərsən çıxışı hələ geniş təhlil edəcəyəm.İndilikdə onu deyim ki,adamın saxtakarlığını başa düşdük, təəssübkeş bir erməni kimi öz milləti üçün mümkün qədər saxtakarlıq etməyə çalışır.



Ancaq politoligiya elmində hələ indiyədək kimsənin eşitmədiyi qondarma terminlə çıxış etməsinə dünya politoloqlarının susmasını başa düşmədim.

Adam BMT tribunasında deyir ki, Rusiya bizim strateji müttəfiqimiz, ABŞ strateji tırəfdaşımlz, İran və Gürcüstan isə STRATEJİ QONŞUMUZDUR. Ay dünyanın və Azərbaycanın həqiqi politoloqları, oxuduğunuz elmdə, yazdığınız kitablarda STRATEJİ QONŞU termininə rast gəlibsinizmi?!

Paşinyana savad verin..."

# Fransa məhkəməsi daha iki şəhərin qondarma "DQR"lə qardaşlaşmasını ləğv etdi

**Fransanın Lion İnzibati Məhkəməsi Sent-Etyen və Desin-Şarpyö şəhərləri ilə Azərbaycanın 25 ildən artıqdır işğal altında olan ərazilərindəki inzibati bölgələr arasında imzalanmış iki xartiyanı ləğv edib. Belə ki, 2018-ci il oktyabrın 21-də Sent-Etyen və Şuşa, eləcə də 2017-ci il sentyabrın 25-də Desin-Şarpyö və Çartar şəhərləri arasında imzalanmış "dostluq xartiyaları" Luar (Loire) və Ron (Rhone) prefekturaları tərəfindən ləğv olunub.**

## *"...belə qərarlar çox vacib idi"*

Məhkəmə hesab edib ki, aidiyyəti şəhərlər arasında münasibətlərin inkişafını nəzərdə tutan "dostluq xartiyaları" əməkdaşlıq fəaliyyətindən ibarətdir. Buna görə də Fransanın beynəlxalq öhdəliklərinə riayət edilməsi baxımından bu "xartiyalar" imzalana bilməz. Hakimlər bildiriblər ki, Fransa ATƏT-in Minsk Qrupu çərçivəsində Dağlıq Qarabağı tanımamaq öhdəliyi götürüb. Buna görə də həmin öhdəlik Fransa hakim dairələrindən bu münaqişə ilə bağlı neytral mövqe tələb edir. Nəticədə Fransa kommunalarının merləri Fransanın beynəlxalq öhdəliklərini bilmədən bu "dostluq xartiyalarını" imzalayıblar. Məhkəmə bu "xartiyaların" ləğv olunması ilə bağlı qərar qəbul edib.

Azərbaycan Xarici İşlər Nazirliyi Fransa Respublikasının sözügedən məhkəməsinin məlum qərarını alqışlayıb. Məlum olub ki, bu günədək Fransanın şəhərləri ilə Azərbaycanın işğal olunmuş ərazilərindəki qondarma rejim tərəfindən yaradılan "yerli hakimiyyət orqanları" arasında imzalanan 9 qanunsuz "müqavilə" Fransanın müvafiq məhkəmə qərarları ilə ləğv olunub. Azərbaycan tərəfi hazırda qüvvədə qalan digər qanunsuz sənədlərin də tezliklə Fransa məhkəmələri tərəfindən ləğv ediləcəyinə ümid edir.

Sözügedən məsələ ilə bağlı fikirlərini "Bakı-Xəbər"lə bölüşən VİP-in sədr müavini Ramil Hüseynovun sözlərinə görə, bu, ermənilərə Fransanın timsalında endirilən növbəti zərbədir: "Fransanın ATƏT-in Minsk Qrupunun həmsədr dövlətlərindən biri olaraq, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi prosesində birbaşa iştirak etməsi onun tam neytral olmasını tələb edir. O baxımdan belə qərarlar çox vacib idi. Qondarma separatçı rejim ilə hər hansı bir formada əməkdaşlıq Fransanın səmərəli vasitəçiliyini şübhə altına salır. Ona görə də may ayından başlayaraq bu cür qərarların verilməsi təqdirəlayiq haldır. Azərbaycan tərəfi belə halların qarşısının alınması istiqamətində daim fəallıq göstərməlidir. Azərbaycanla Fransa arasında əlaqələrin dinamik inkişafı fonunda, bu, yerində verilmiş bir qərardır.

**Bu onu göstərir ki, Fransa hakimiyyəti qondarma rejimlə əməkdaşlıqda maraqlı deyil. Baxmayaraq ki, erməni lobbisi buna çox çalışır. Sözügedən məhkəmə qərarları gələcəkdə belə sənədlərin imzalanmasının qarşısının alınması baxımından vacib rol oynaya bilər".**

### ***Ramil Hüseynov:*** *"Bu, ermənilərə Fransanın timsalında endirilən növbəti zərbədir"*



***Vidadi ORDAHALLI***

# Paşinyan BMT-də dünya politoloqlarını şoka saldı - "strateji qonşu" termini varmı?

**BMT Baş Assambleyasında çıxışı zamanı Ermənistan Baş naziri Nikol Paşinyan siyasi cəhətdən nə dərəcədə dayaz fikirli olduğunu bir daha sübut edib. O, dünya ölkələrini Ermənistanla olan münasibətləri fonunda özünəməxsus tərzdə səciyyələndirib. Bu xüsusda bildirib ki, Rusiya Ermənistanın əsas strateji tərəfdaşıdır: "Rusiya bizim əsas strateji tərəfdaşımız və müttəfiqimizdir. Gürcüstan və İran strateji qonşularımızdırlar".**

## *"Strateji qonşu" ifadəsi Paşinyanın "kəşfidir"*

Paşinyan Ermənistanın öz dostları və müttəfiqləri arasındakı fikir ayrılığını narahatlıqla izlədiyini bildirib. O, bunun sayəsində bəzi dostlarının Ermənistanı doğru anlamayacağından narahat olduğunu deyib. Paşinyan Türkiyənin Ermənistana ciddi təhdid olduğunu da söyləyib. Qeyd edək ki, BMT Baş Assambleyasında çıxışı zamanı Türkiyə lideri Ərdoğan Azərbaycan torpaqlarının işğaldan azad edilməsinin vacibliyini gündəmə gətirib.

Ən maraqlısı budur ki, Paşinyan Gürcüstan və İranı Ermənistanın "strateji qonşu"su adlandırır. Politologiyada bu terminə ilk dəfə Paşinyanın nitqində rast gəlinir. Ümumiyyətlə, bu ifadəni işlədən adamın hansı səviyyədə politoloji savada malik olduğu qənaətinə gəlmək olar?

Politoloq Nəzakət Məmmədova "Bakı-Xəbər"ə bildirdi ki, Paşinyanın "icad" etdiyi termin kökündən yanlışdır: "Əvvəla onu qeyd edim ki, "strateji qonşu" ifadəsi yoxdur. Strateji müttəfiq ola bilər, strateji tərəfdaş da ola bilər, lakin "strateji qonşuluq" anlayışı yoxdur. Strateji ifadəsi coğrafi yaxınlığa görə yox, qarşılıqlı münasibətlərin statusuna görə işlədilən ifadədir. Məsələn, təbii müttəfiq ifadəsi var. Müəyyən geosiyasi, siyasi, coğrafi, etnik, dini və s. amillərin məcmusu iki ölkənin ittifaqını zərurətə çevirib, onu labüd edirsə, bu, təbii müttəfiqlikdir. Lakin nə geopolitikada, nə politologiyada, ümumiyyətlə, beynəlxalq münasibətlərə dair heç bir elm sahəsində "strateji qonşuluq" ifadəsi yoxdur. Beynəlxalq münasibətlər və beynəlxalq hüquq üçün müvafiq beynəlxalq konvensiyalar, normativ-hüquqi aktlar, sanballı alimlərin əsərləri və s. etibarlı mənbə rolu oynayır.

Lakin "strateji qonşu" ifadəsi Paşinyanın "kəşfidir". Halbuki, jurnalist peşəsindən gəldiyi üçün, ən azından, bu terminləri bilməli idi. Üstəlik də Gürcüstan və Ermənistan heç "strateji qonşuluq" münasibətlərinə də malik deyillər. Nə iki ölkə arasındakı münasibətlərin səviyyəsi, nə də haqqında danışdığımız ifadə doğru deyil. Bununla Paşinyanın hansı dərəcədə naşı siyasətçi olduğu bir daha sübut olunur".

### ***Nəzakət Məmmədova:*** *"Strateji ifadəsi coğrafi yaxınlığa görə yox, qarşılıqlı münasibətlərin statusuna görə işlədilən ifadədir"*



***Məhəmmədəli QƏRİBLİ***

# London məhkəməsi Zamirə Hacıyevanın ekstradisiyasında çox ciddi əsasları nəzərə almadı...

**Londonda Beynəlxalq Bankın keçmiş rəhbəri Cahangir Hacıyevin həyat yoldaşı Zamirə Hacıyevanın Azərbaycana ekstradisiyası ilə bağlı məhkəmə prosesi keçirilib. İclasda Vestminster şəhər məhkəməsi qərarı açıqlayıb. İngiltərə KİV-i xəbər verir ki, məhkəmə Z.Hacıyevanın Azərbaycana ekstradisiya olunmaması barədə qərar çıxarıb.**



Azərbaycan hökumətini təmsil edən vəkil məhkəmənin qərarından apelyasiya şikayəti verəcəklərini bildirib. Hacıyevanın vəkili isə qərarı şərh etməkdən imtina edib.

Qeyd edək ki, krallıq məhkəməsində 8 noyabr 2018-ci il tarixli məhkəmə iclasından sonra Z.Hacıyeva müəyyən şərtlərlə girov müqabilində sərbəst buraxılmışdı. Bu şərtlərdən birinə görə Z.Hacıyevanın şəxsiyyət vəsiqəsi polisdə saxlanır. Həm də qolunda elektron nəzarət qolbağı gəzdirmək, axşam və gecə saatlarında evdən çıxmamaq, hər gün polis bölməsində qeydiyyatdan keçmək məcburiyyətindədir.

Z.Hacıyeva İngiltərədə "çirkli pullar"ın yuyulmasına qarşı mübarizə haqqında yeni tətbiq olunan qanuna əsasən araşdırmaya cəlb edilən ilk əcnəbidir. O, Böyük Britaniyanın Milli Cinayət Agentliyi (NCA) tərəfindən qanunsuz yolla əldə edilmiş pulların leqallaşdırılmasına qarşı qanun çərçivəsində həbs edilib. Z.Hacıyeva pulların mənimsənilməsində günahlandırılıb, daha sonra o, istintaq təcridxanasında saxlanıb. Lakin 500 min funt-sterlinq girov müqabilində sərbəst buraxılıb. Hazırda Z.Hacıyeva Londondakı evində yaşayır, şəhərdən çıxması qadağandır və hər gün polisdə qeydiyyatdan keçir.

***Fərhad Mehdiyev:** "Onun əmlakı ilə bağlı müsadirə qərarı çıxarılacaqsa, onda Azərbaycan mütləq həmin mülklərin satılıb ölkəmizə verilməsini tələb edəcək"*

London Ali Məhkəməsi Böyük Britaniyanın Milli Cinayət Agentliyinin (NCA) tələbi ilə Z.Hacıyevanın 15 milyon funt-sterlinqlik "Knightsbridge" malikanəsini, 11 milyon funt-sterlinq dəyərində qolf klubunu, təxminən 50 milyon dollara və zinət əşyalarına başa gələn "Gulfstream" təyyarəsini müsadirə edib.

Bu ilin iyun ayında Vestminster Magistrat Məhkəməsində Böyük Britaniya Milli Cinayət Agentliyi tərəfindən qanunsuz yolla əldə edilmiş pulların leqallaşdırılmasına dair Z.Hacıyevaya qarşı açılan cinayət işinin məhkəməsi başlayıb.

İttiham aktında bildirilir ki, Z.Hacıyeva 2009-cu ildən 2015-ci ilə qədər Azərbaycan Beynəlxalq Bankından 97 milyon ABŞ dolları (76 milyon funt-sterlinq) oğurlamaqla məşğul olan 37 nəfərdən ibarət mütəşəkkil cinayətkar qrupun üzvü olub.

Əslində, həm ittiham aktından, həm də Z.Hacıyevadan müsadirə olunan mülklərin və əşyaların məbləğindən aydın görünür ki, burada "çirkli pulların yuyulması" əməliyyatı var və həmin vəsaitlərin mənbəyi şübhəlidir. Çünki Z.Hacıyeva indiyə kimi böyük bizneslə məşğul olmayıbsa, onda bu qədər pul onda hardandır?

Beynəlxalq hüquq üzrə professor Fərhad Mehdiyev "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, burada vəziyyət bir qədər fərqlidir: "Z.Hacıyeva ilə bağlı ekstradisiya qərarının çıxarılmaması o demək deyil ki, onun cinayətləri tamamilə bağışlandı. Bildiyim qədərilə, Z.Hacıyeva ilə bağlı oranın məhkəməsində iki işə baxılır. Biri ekstradisiya ilə, digəri isə əmlakının müsadirə edilməsilə əlaqəlidir. Məhkəmənin çıxardığı qərar onun ekstradisiya olunmaması ilə bağlıdır. Onun ekstradisiya edilməməsi ilə bağlı irəli sürülən səbəblərdən biri o idi ki, ona irəli sürülən ittihamda guya siyasi motiv əlamətləri var. Bu xüsusda onun həyat yoldaşının yüksək postda çalışması və hazırda ağır cəzaya məhkum edilməsi əsas götürülüb. Yəni Avropada belə tələblərə ciddi yanaşırlar. Z.Hacıyevanın müdafiəçiləri bu amili qabartmaqla, onun ekstradisiyasını saxlamağa nail olublar. Çünki burada bir insanın cinayət törədib-törətməməsi rol oynamır. Əsas kimi Z.Hacıyevanın təqibə məruz qala biləcəyi götürülür. Z.Hacıyeva ilə bağlı əsas ittiham isə hələ qalır. Ona baxılmayıb. Həmin işdə söhbət "çirkli pulların yuyulması"ndan gedir. Belə bir iş İngiltərənin praktikasında ilk cinayət işidir. Bu səbəbdən də İngiltərə mediası prosesi xüsusi nəzarətdə saxlayır. Maraqlı olan məsələ həmin işin necə həll edilməsidir. Çünki söhbət külli miqdarda vəsaitdən gedir. Təbii ki, hər bir ölkə istəyər ki, həmin pul özündə qalsın. Ancaq ortada konkret faktlar və dəlillər var. Yəni Z.Hacıyeva heç vaxt o qədər pulu qazana bilməzdi. Onun əmlakı ilə bağlı müsadirə qərarı çıxarılacaqsa, onda Azərbaycan mütləq həmin mülklərin satılıb ölkəmizə verilməsini tələb edəcək. Bunun üçün əlimizdə kifayət qədər hüquqi əsas da var".

***Məhəmmədəli QƏRİBLİ***

# Ali Məhkəmə ölkənin ən radikal sayt və TV-ləri üçün yeni fəaliyyət şansı açır

**Ali Məhkəmədə "Azadlıq" qəzeti, "Azadlıq" radiosu, "Azərbaycan saatı" proqramı, "Turan TV" və "Meydan TV"nin saytlarına blok qoyulmasını nəzərdə tutan qərarla bağlı verilən kassasiya şikayətinə baxılıb. Bildirilir ki, hakim Ələsgər Əliyevin sədrliyi ilə keçirilən prosesdə qəbul edilmiş qərara əsasən, saytlara blok qoyulması ilə bağlı qərar ləğv edilərək yenidən baxılması üçün Bakı Apelyasiya Məhkəməsinə göndərilib.**



Qeyd edək ki, Səbail Rayon Məhkəməsi Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin iddiası əsasında 2017-ci ilin mayında "Azadlıq" qəzeti, "Azadlıq" radiosu, "Azərbaycan saatı" proqramı, "Turan TV" və "Meydan TV"nin saytının bloklanması barədə qərar çıxarıb. Bakı Apelyasiya Məhkəməsi həmin qərardan verilən şikayəti təmin etməyib. Bakı Apelyasiya Məhkəməsinin qərarından isə Ali Məhkəməyə kassasiya şikayəti verilmişdi.

"Meydan TV"nin vəkili Elçin Sadıqlı da qərarla bağlı öz "Facebook" səhifəsində açıqlama yayıb. Vəkil deyir ki, müdafiə etdiyi resurs digər qurumlardan ayrılaraq təkbaşına şikayət edib:

"Ali Məhkəmə 10 sentyabr 2019-cu il tarixli (sədrlik edən hakim Ələsgər Əliyev) qərarıyla "Meydan TV"nin bloklanması işi ilə bağlı verdiyi kassasiya şikayətini təmin edib. Bakı Apelyasiya Məhkəməsinin iş üzrə qəbul etdiyi qətnamə tamamilə ləğv edilərək, iş yenidən baxılması üçün Bakı Apelyasiya Məhkəməsinə qaytarılıb. Ali Məhkəmənin qərarının mətni hələ bizə verilməyindən, BAM-ın qətnaməsinin ləğv edilmə səbəbləri barədə məlumat verə bilmirik".

Qeyd edək ki, Apelyasiya Məhkəməsinin saytında "Meydan TV" ilə yanaşı, "Azadlıq" radiosu "Turan TV", "Azərbaycan saatı" və sair bloklanmış media resursları ilə bağlı Apelyasiya Məhkəməsinin qərarının ləğv olunduğu qeyd olunub. Digər saytlarla bağlı qərarın ötən il iyulun 4-də verildiyini xatırladan media hüququ üzrə ekspert Xalid Ağəliyev Ali Məhkəmənin qərarını belə şərh edib: "Meydan TV"nin bloku götürülməyib. Ali Məhkəmə resursun kassasiya şikayətini təmin edib - Bakı Apelyasiya Məhkəməsinin qərarını (həmin qərarda "Meydan TV"nin bloklanması barədə rayon məhkəməsinin qərarı qanuni və əsaslı sayılırdı) ləğv edib və Bakı Apelyasiya Məhkəməsinə deyib ki, işə yenidən bax. Ali Məhkəmənin qərarı hələ tərəflərə təqdim edilməyib, hələ bəlli deyil ki, Ali Məhkəmənin qərarı hansı əsaslara söykənir. Amma istənilən halda xoş qərardır. "Meydan TV"nin bloku o zaman götürülmüş ola bilər ki, Bakı Apelyasiya Məhkəməsi gələcəkdə Səbail Rayon Məhkəməsinin qərarını ləğv etsin. Texniki olaraq, o da mümkündür ki, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi texniki süzgəci öz təşəbbüsü ilə qaldırsın".

"Azadlıq" qəzetinin əməkdaşları isə bizmlə söhbətlərində bildirdilər ki, Ali Məhkəmənin qərarının onlara aidiyyəti yoxdu: "Bu qərarın "Azadlıq" qəzetinə heç bir aidiyyəti yoxdur. "Azadlıq" qəzetinin kassasiya şikayətinə 1 il əvvəl, 2018-ci ilin iyununda baxılıb. Ali Məhkəmə həmin resursun bloklanmasının qanuni olmasına qərar verib. Ali Məhkəmənin bir il əvvəlki həmin qərarı ilə bizim ölkədaxili müdafiə vasitələri tükənib. Buna görə də Avropa Məhkəməsinə şikayət edilib. Bildiyimiz qədər, həmin şikayət icraata qəbul olunub".

Bloklanan saytlarla bağlı Ali Məhkəmənin qəbul etdiyi qərarın nə kimi perspektivi ola bilər?

Media eksperti Azər Həsrət "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Azərbaycanda medianın fəaliyyəti üçün mümkün qədər liberal şərait var: "Azərbaycan hakimiyyəti bütün dövrlərdə çalışıb ki, mətbuat heç kimin, xüsusən də dövlətin müdaxiləsi olmadan sərbəst fəaliyyət göstərə bilsin. Təəssüflər olsun ki, bir sıra həmkarlarımız mətbuatdan başqa məqsədlər üçün sui-istifadə ediblər. Ölkədə çaxnaşmaya xidmət edən materialları paylaşıblar. Təbii ki, dövlət də belə bir durum qarşısında müxtəlif tədbirlər görməyə məcbur olub. Onlayn medianın geniş yayıldığı bir dönəmdə xüsusilə də xaricdən idarə olunan və Azərbaycanda daxili sabitliyi pozmaq istiqamətində fəaliyyət göstərən KİV-in fəaliyyətinin qarşısının alınması zərurəti yarandı. Dövlət əlində olan bütün qanuni vasitələrdən istifadə edərək bu addımları atırdı. Amma yenə də dövlət öz böyüklüyünü göstərir. Qanunların işlədiyini bir daha sübut etmiş olur. Adını çəkdiyiniz KİV-in sərbəst fəaliyyəti üçün bir şans tanınır. Düşünürəm ki, belə bir şansı onlar dəyərləndirməlidirlər. Hansına şamil olunacaqsa, qanunvericilik çərçivəsində fəaliyyətə üstünlük verməlidirlər. Azərbaycan jurnalistlərinin peşə davranışı qaydalarına əməl etməlidirlər. Digər tərəfdən isə daxili çaxnaşmaya səbəb olacaq saxta məlumatları yaymaqdan boyun qaçırmalıdırlar. Məhkəmənin yanaşması təqdirəlayiqdir. Bu həm də bloklanması ləğv ediləcək saytların əlavə məsuliyyəti deməkdir. Onlar çalışmalıdırlar ki, bundan sonrakı fəaliyyətlərində əvvəlki səhvlərini təkrarlamasınlar".

***Məhəmmədəli QƏRİBLİ***

**Məlum olduğu kimi, Bakı Şəhər İcra Hakimiyyəti (BŞİH) Milli Şuranın mitinqlə bağlı müraciətini cavablandırıb. Belə ki, BŞİH-də müraciətə baxılıb və mitinqin sentyabrın 28-də saat 15:00-dan 17:00-dək Lökbatan qəsəbəsində, "Neftçi" idman klubunun Qaradağ təlim-idman bazasında keçirilməsinə razılıq verilib.**

# Radikal müxalifət kütləvi aksiyalar üçün niyə məhz Bakının mərkəzi meydanlarını istəyir...

## *Məhərrəm Zülfüqarlı: "Onlar məlum yerdə mitinq keçirməkdən imtina etməklə öz zəifliklərini ortaya qoydular"*




BŞİH-nin qərarında o da qeyd olunub ki, mitinq təşkilatçılarının təklif etdiyi "Nəriman Nərimanov" metrostansiyasının qarşısındakı parkda toplanmaq ictimai təhlükəsizliyin təmin edilməsi baxımından mümkün deyil: "Sizin mitinq keçirilməsi üçün qeyd etdiyiniz ərazilərin nəqliyyat vasitələrinin intensiv hərəkət etdiyi, həmçinin, əhalinin daha sıx fəaliyyətdə olduğu metro çıxışları yaxınlığında olması toplantıda iştirak etməyən digər insanların sərbəst hərəkətinə problem yaradacağı, eyni zamanda, həmin ərazilərdəki ticarət-iaşə, xidmət obyektlərinin iş ahənginə ciddi maneələr törədəcəyinə görə təhlükəsizliyin təmin edilməsində çətinlik yaradacaq".

Ancaq Milli Şura BŞİH-nin icazə verdiyi yerdə mitinq keçirməkdən imtina edib. AXCP sədri Əli Kərimli bildirib ki, həm Milli Şurada, həm də AXCP Rəyasət Heyətində bu variantı əvvəlcədən müzakirə edib: "Lökbatanda və ya şəhərdən kənar hər hansı qəsəbədə mitinq keçirməyəcəyik. Lökbatanda mitinq keçirmək təklifini, əslində, mitinqə "yox" demək kimi qiymətləndiririk".

Qeyd edək ki, müxalifətçilərin ənənəvi olaraq mitinqlərini keçirdiyi Yasamal rayonundakı "Məhsul" stadionu təmirə bağlanıb. Bunun əvəzində digər alternativ variantlar təklif edilir. Onlardan biri də Lökbatan qəsəbəsində yerləşir və kütləvi aksiya keçirmək üçün uyğun bir yerdir.

Ancaq, nədənsə, radikal müxalifət hər dəfə şəhərin mərkəzində mitinq keçirməyə israr edir. Hansı ki, onların bununla bağlı təklif etdiyi yerlər əhalinin istirahətinə, insanların gediş-gəlişinə mane olduğu üçün, həmin yerlərdə aksiya keçirilməsinə icazə verilmir. Səbəb bununla əlaqədardır. Hər dəfə mitinq məsələsi ortaya çıxanda radikal müxalifət təmsilçiləri şəhərin mərkəzində aksiya keçirmək tələbi ilə çıxış edirlər. Onların hər dəfə belə tələblərlə çıxış etməsi sözügedən düşərgənin sosial bazası ilə bağlı bir sıra sualların ortaya çıxmasına gətirib çıxarır.

Məsələ ondadır ki, sosial bazası, tərəfdarları olan hər hansı bir siyasi təşkilat şəhərin istənilən yerində mitinq keçirə və aksiyaya adam toplaya bilər. Olmasın şəhərin mərkəzi, olsun şəhərətrafı yerlər. Milli Şurada təmsil olunan qüvvələr özlərinə inamlıdırsa, o zaman şəhərətrafı yerlərdə də aksiya keçirə bilərlər. Ancaq onlar bundan nümayişkaranə şəkildə imtina edirlərsə, deməli, bununla sosial dayaqlarının zəif olduğunu, tərəfdarlarının azlığını etiraf etmiş olurlar. Sadəcə, bəhanələri olur ki, şəhərin mərkəzində aksiya keçirmələrinə icazə verilmir. Şəhərin mərkəzində aksiya keçirsələr, məgər mitinqə gələnlərin sayı çox olacaq? Zatən, Yasamal rayonundakı "Məhsul" stadionunda Milli Şuranın keçirdiyi aksiyalar hamının gözü qabağındadır. Mitinqə gələnlərin sayı çox az olurdu. Radikal müxalifət bu biabırçılığı pərdələmək üçün müxtəlif vasitələrə əl atırdı. Ancaq bütün bunlar belə, köməyə çatmırdı. Mitinqə gələnlərin sayının azlığı insanlarda ikrah hissi yaradırdı.

Bütün bunların fonunda maraqlıdır, radikal müxalifət kütləvi aksiyalar üçün niyə məhz Bakının mərkəzi meydanlarını istəyir?

Məsələyə münasibət bildirən İctimai Problemlərin Tədqiqi Assosiasiyasının rəhbəri Məhərrəm Zülfüqarlının sözlərinə görə, radikal müxalifətin BŞİH-nin məsləhət bildiyi yerlərdə mitinq keçirməkdən imtina etməsi bu qüvvələrin gücsüzlüyündən, zəifliyindən irəli gəlir: "Məlum olduğu kimi, Milli Şura tərəfindən mitinq keçirməklə bağlı BŞİH-yə müraciət olunub. Mitinqin keçirilməsinə razılıq da verilib. Ancaq radikal müxalifət təmsilçiləri buna razı olmadılar. Onlar istəyirlər ki, şəhərin mərkəzində aksiya keçirsinlər. Guya bununla nəsə dəyişəcək. Əslində, bununla onlar, sadəcə, əhalinin istirahətini pozmuş olacaqlar. Müxalifətin gücü olmalıdır və buna əsaslanaraq istənilən yerdə mitinq keçirməyi bacarmalıdır. Onlar məlum yerdə mitinq keçirməkdən imtina etməklə öz zəifliklərini ortaya qoydular. Zəif müxalifət bundan imtina etməklə lap gücsüz olduğunu etiraf edir. Hansı ki, Milli Şura bu imkandan istifadə etməli idi. Bir vaxtlar bolşeviklər Duma tribunasından istifadə edib öz fikirlərini bəyan edirdilər. Radikal müxalifət də mitinq üçün yer istəyib və onlara yer də verilib. Ancaq onların bundan imtina etməsi sözügedən qüvvələrin zəifliyini göstərir. Bu həm də onu göstərir ki, radikal müxalifətin sosial dayaqları yoxdur. Sonra da Avropa Şurasında və digər qurumlarda məsələ qaldıracaqlar ki, guya bizdə demokratiya, insan haqları boğulur. Bu il bələdiyyə seçkiləridir. Məqam idi ki, icazəli mitinq keçirib öz proqramları ilə çıxış etsinlər. Ancaq onlar zəif olduğundan, bu imkandan istifadə etmədilər".

*"Bu həm də onu göstərir ki, radikal müxalifətin sosial dayaqları yoxdur"*

***Vidadi ORDAHALLI***

---

**İki hissəyə ayrılan "Azərbaycan Xalq Hərəkatı"nda qanadlardan birinin idarə heyətinin son iclasında insidentin yaşandığı və həmin qurumda təmsil olunan azsaylı siyasətçinin də qurumdan çıxarıldığı, bəzilərinin isə oranı könüllü tərk etdiyi bildirilir.**

# "Azərbaycan Xalq Hərəkatı"nda tək Mirmahmud Mirəlioğlu qaldı...

## *Tahir Abbaslı: "Əhməd Oruc iclasda dediklərini sübut edə bilmədi"*

## *Rəhim Qazıyev: "Ortada yeyib, qıraxda gəzməyi xoşlamıram"*

## *Əhməd Oruc: "Siz istəyirsiniz ki, DYP bu kasıb vaxtımda məni cərimələsin?"*




Həmin məlumatlarda qeyd edilir ki, Azadlıq Partiyasının sədri Əhməd Orucla Mirmahmud Mirəlioğlu arasında yaşanan insident birincinin hərəkatdan çıxarılması ilə nəticələnib.

Elə həmin gün sabiq müdafiə naziri Rəhim Qazıyevin AXH-dən istefa verdiyi deyilir. Həmin iclasda iştirak edən İslam Demokrat Partiyasının sədri Hacı Tahir Abbaslı məlumatı təsdiqlədi: "Məlumatlar doğrudur. Əhməd Oruc hərəkatdan kənarlaşdırıldı. Rəhim bəy isə istefa verdi. O, hərəkatda irəliləyişin yetərincə olmadığını dedi. Eyni zamanda, hərəkatın idarə heyətində ciddi problemlərin olduğunu söylədi. O da doğrudur ki, əsas narazılıq Əhməd Oruc və Mirmahmud Mirəlioğlu arasında baş verdi. Əhməd bəy onun haqqında yanlış informasiya vermişdi. İdarə heyəti isə qərar verdi ki, əgər Əhməd Orucun dedikləri öz təsdiqini taparsa, ya Mirmahmud Mirəlioğlu, ya da o, hərəkatdan getməlidir. Qapalı iclasda məsələnin müzakirə edilməsi qərara alındı. Əhməd Oruc iclasda dediklərini sübut edə bilmədi. Nəticədə səsvermə ilə o, hərəkatın idarə heyətindən çıxarıldı".

Qeyd edək ki, Tahir Abbaslının özünün də qurumdan, demək olar ki, çıxmaq ərəfəsində olduğu bildirilir. Yaranmış vəziyyətə tam aydınlıq gətirmək üçün sabiq müdafiə naziri Rəhim Qazıyevlə əlaqə saxladıq. O, "Bakı-Xəbər"ə açıqlamasında bizdən niyə məhz bu məsələyə belə böyük diqqət ayırdığımızı soruşdu: "Ay qardaş, bəyəm ölkədə başqa problem yoxdur? Niyə ondan yazmırsınız? Hansı naziri işdən çıxarırlar, altından milyardlar çıxır. Elə bu ölkənin problemi Rəhim Qazıyevin hardansa istefa verməyi ilə bağlıdır? Bizim KİV sanki müxalifətin daxilində gedən prosesləri şişirtməkdə maraqlıdır. Mənim oradan istefa verməyim kimdənsə narazı olmağımla əlaqəli deyil. Mənim 77 yaşım var, heç bir partiyanın da sədri deyiləm. Ora fərd kimi üzv idim, fərd kimi də oranı tərk etmişəm. İki ildir qardaşım çox ağır xəstədir. İndi də vəziyyəti lap ağırlaşıb. Özüm də ortada yeyib, qıraxda gəzməyi xoşlamıram. Gördüm ki, təşkilatın işinə heç bir fayda verə bilmirəm. Ona görə də utandım ki, millətin qabağında "mən də varam" deyib boşboş gəzməyim. Mən yenə də müxalifət üçün əlimdən gələn dəstəyi verəcəm. Hesab etdim ki, adım idarə heyətinin üzvü olsa da, nəsə edə bilmirəm, ondansa istefa vermək daha yaxşıdır. Xahiş edirəm burada heç bir başqa mənə axtarılmasın. Dünəndən mənə bir neçə KİV-dən zəng ediblər, heç birinə də danışmadım. Bu barədə yegane açıqlamanı sizə verdim".

Qeyd edək ki, biz gün ərzində həm Mirmahmud Mirəlioğlu, həm də Əhməd Orucla bir necə dəfə əlaqə saxladıq. Onlar sualımızı dinləyəndən sonra bir neçə dəfə bizə müxtəlif vaxtlarda zəng vurmağımızı xahiş etdilər. Hər ikisi "gah yasdayam, gah sükan arxasındayam" deməklə, sonra isə telefonlara cavab verməmək kimi mövqe sergilədilər. Aydındır ki, bütün bunlar sualdan yayınmaq üçün olunan immitasiyadır. Çünki insan səhərdən axşama kimi sükan arxasında və ya yasda ola bilməz ki... Hətta bu sualı Əhməd Oruca da verdik. Dedi, yolum çox uzaqdır, axşama ancaq çataram: "Siz istəyirsiniz ki, DYP bu kasıb vaxtımda məni cərimələsin?".

Qalmaqalda adları hallanan siyasilər sualdan nə qədər yayınmağa çalışsalar da, ortada bir fakt var. Onların şəxsi intriqaları ucbatından müxalifətin daha bir təsisatı tarixin arxivinə qovuşmuş oldu.

***Məhəmmədəli QƏRİBLİ***

**Ermənistanda getdikcə özünü daha qabarıq surətdə büruzə verən siyasi böhran fonunda hakimiyyətin rəqiblərinə qarşı daha daha amansız olacağına dair xəbərdarlıqlar artır. Ermənistan mediası yazır ki, bunun əsas səbəblərindən biri də baş nazir Nikol Paşinyanın reytinqinin kəskin şəkildə aşağı düşməsi ilə bağlıdır.**

# Ermənistanda dəhşətli xaos - Paşinyanın reytinqi 25 faiz həddində, keşişlər "diz çökməyəcəklər"...



Belə vəziyyətdə Paşinyan rəqbilərinə qarşı yeni siyasi şoular düzəltməklə, reytinqini az da olsa xilas etmyə çalışır.

"Qraparak" qəzeti yazır ki, bu günlərdə hökumət başçısının vətəndaşlar arasında nüfuzunu müəyyən etmək üçün sosial şəbəkələrdə rəy sorğusu keçirilib. Nəticədə məlum olub ki, Paşinyanın reytinqi azalaraq 25 faizə düşüb. Halbuki, 2018-ci il dekabrın 9-da Ermənistanda keçirilən növbədənkənar parlament seçkilərində Paşinyanın rəhbərlik etdiyi "Mənim addımım" bloku 70,43 faiz səs toplamışdı və baş nazirin reytinqi də buna adekvat idi. Amma ötən dövr ərzində Ermənistanda sosial-iqtisadi, siyasi müstəvidə pisləşən vəziyyət Paşinyanın reytinqinin kəskin şəkildə aşağı düşməsinə gətirib çıxarıb. Bunu yeni siyasi şoular əsasında əngəlləmək üçün baş nazir yenidən hərəkətə keçib. "Qraparak" qəzeti yazır ki, Paşinyan buü dəfə reytinqini Serj Sarksiyanı həbsə atmaqla xilas etməyi düşünür. Bildirilir ik, artıq tezliklə Serj Sarksiyana və bir neçə oliqarxa qarşı cinayət işləri açıla bilər: "Ermənistan hakimiyyətinin daxili sorğuları hakimiyyət üçün bir o qədər də arzuedilən nəticələr göstərmir. Gündən-günə düşən reytinqi saxlamaq, yaxud qaldırmaq üçün Paşinyan genişmiqyaslı kadr dəyişiklikləri həyata keçirməyə hazırlaşır. Bundan başqa digər tədbirlər də nəzərdən keçirilir. Son variant olaraq, Serj Sarksiyana və bir neçə oliqarxa qarşı cinayət işləri açıla bilər. Ermənistan hüquq-mühafizə orqanlarının 3 istiqamətdə durmadan istintaq aparmasının səbəbi də bununla əlaqələndirilir. Bu istintaqlardan biri "1 mart" hadisələri ilə bağlı Sarkisyana qarşı olan ifadələr, digəri aprel döyüşləri və nəhayət üçüncüsü Mehri dəmir yolu cinayətinin araşdırmasıdır. Bundan əlavə, əldə edilən məlumatlara görə, Sarkisyana yaxın çevrə də istintaq araşdırmaları şousuna cəlb edilə bilər". Artıq bu istiqamətdə addımlar atılır. Belə ki, Ermənistan İstintaq Komitəsi Sarksiyanın əsas kadrlarından sayılan sabiq müdafiə naziri Vigen Sarkisyanın təqsirləndirilən şəxs qismində cəlb olunmasına dair kifayət qədər sübutlar əldə etdyini bildirib. Bildirilir ki, bununla əlaqədar Ermənistan Cinayət Məcəlləsinin 2 müvafiq maddəsi üzrə cinayət işi başlanıb. Vigen Sarkisyan baş verənləri hakimiyyətin şousu kimi qiymətləndirib: "İstintaq orqanları mənə şahid kimi mövqeyimi bildirmək imkanı vermədən açıq şəkildə siyasi məqsədləri təqib edən addımlar atır". O bildirib ki, İstintaq Komitəsində araşdırılan cinayət işi üzrə onu təqsirkar qismində prosesə cəlb etmək istəyirlər: "İstintaq orqanları mənə şahid kimi mövqeyimi bildirmək imkanı vermədən açıq şəkildə siyasi məqsədləri təqib edən addımlar atır".

Keçmiş hakimiyyətlə yanaşı son günlərdə Paşinyanın kilsə ilə qarşıdurması da əslində yeni siyasi şou kimi qiymətləndirilir. Məlumdur ki, Paşinyanın erməni kilsəsi ilə münasibətləri daha da gərginləşib. Xatırladaq ki, ABŞ-ın Los-Anceles şəhərinə səfəri zamanı Paşinyan keşişləri hədələyib və onun bəyanatı Eçmiədzin kilsəsində böyük narahatlıq yaradıb. Çünki baş nazirin sözlərinə görə, keşişlər güclü zərbəyə məruz qalacaq və həm sözün həqiqi, həm də məcazi mənasında diz çökdürüləcəklər.

Baş nazirin bu bəyanatı ilə bağlı jurnalistlərə açıqlama verən ermənilərin katolikosu ikinci Qaregin bildirib ki, "keşişlərin diz çökdürüləcəyi" məsələsini Paşinyanla onun səfəri başa çatdıqdan sonra müzakirə edəcək. O əlavə edib ki, kilsə artıq bu sərt bəyanata lazımi cavab verib və bunu baş nazirlə bir daha müzakirə edəcək. Qareginin sözlərinə görə, hazırda erməni xalqını narahat edən bir çox məsələ ətrafında da Paşinyanla fikir mübadiləsi aparmaq fikrindədir. Amma Paşinyan güzəştə getmək niyyətində deyil. Bundan əlavə, onun komandasının üzvləri olmuş bəzi şəxslərə qarşı sərt ölçü götürməsi də siyasi şouya aid edilən məqamlardan sayılır. Erməni politoloq Aram Amatuni isə bildirir ki, belə siyasi şoular quran Paşinyan həm də ölkədə yeni diktatura yaradır. Onun sözlərinə görə, Paşinyanın və keçmiş xüsusi xidmət rəhbərinin istefası və ya vəzifədən azad edilməsi ilə bağlı mübahisəli vəziyyət Ermənistan üçün olduqca misilsizdir: "Bu polemikaları siyasi məqsədlər üçün istifadə edənlərin tapılması həm başadüşüləndir, həm də çox məntiqlidir. Axı, hər kəs bu vəziyyətdən öz mənfəəti üçün istifadə etmək istəyir. Çoxlarının Ermənistanda heç bir hakimiyyət dəyişikliyi olmadığını iddia etməsinə baxmayaraq, söhbət hakimiyyət dəyişikliyindən sonra formalaşan vəziyyətdən gedir. Bir tərəfdən Paşinyan və tərəfdarları ilə, digər tərəfdən ondan heç də geri qalmayan, ictimai reytinqi olan keçmiş MTX rəhbəri Artur Vanetsyan indi cəmiyyətin tənqid və qəzəbinin sədaları altına düşüb.

Münaqişə, şübhəsiz ki, özünün ciddi subyektiv və lokal əhatə dairəsinə, səbəblərinə və ya bəlkə də kəskin bir hadisəyə, maraqlı tərəfdaş çərçivəsinə və bu çərçivədən xarici müstəviyə aparan ipucuna malikdir. Amma hakimiyyət dəyişikliyindən sonrakı şərti dairələrdə problemləri diktatura ilə həll etmək istəyi daha da güclənir. Paşinyanın Los-Ancelesdə açıqladığı kimi, problemlərin bu cür həlli istisna edilir. Lakin bu bəyanatlardan sonra, əslində xronoloji olaraq, cəmiyyət hakimiyyət dəyişikliyindən sonrakı dövrdə praktiki olaraq ən şiddətli qarşıdurmanın yeni dalğasının şahidinə çevrildi". Belə vəziyyətdə ekspert Ermənistanda formalaşmış diktaturanın ölkədə yeni xaosa səbəb olacağını da istsina etmir. Özü də bu o şəraitdə baş verir ki, ölkə daxilində bir-birinə rəqib olan qüvvələr məqsədlərinə çatmaq üçün ən sərt üsullardan, hətta açıq qarşıdurmadan belə istifadə etməyə hazırdırlar.

***Nahid SALAYEV***

# Paşinyan BMT tribunasında Qarabağ münaqişəsinin mahiyyətini tam təhrif etdi - Dünya həmsədrlərin reaksiyasını gözləyir...

**Ermənistanın Baş naziri Nikol Paşinyan sentyabrın 25-də Nyu-Yorkda BMT Baş Assambleyasının 74-cü sessiyasındakı çıxışı zamanı sərsəm fikirlər səsləndirib. Onun sözlərinə görə, guya Azərbaycanın məqsədi 1990-cı və 2016-cı ildə Dağlıq Qarabağ xalqına qarşı uğursuz təcavüz aktlarına görə qisas almaqdır.**

*"Səsləndirdiyi o sərsəm açıqlamaya ATƏT-in Minsk Qrupu həmsədrləri reaksiya verməlidirlər"*

***Elçin Mirzəbəyli:** "Paşinyanın danışıqlar prosesinin bütün mahiyyətinə, fəlsəfəsinə zidd olan fikirlər səsləndirməsi, əslində, növbəti provokasiyadır"*



Bu səbəbdən də guya antierməni əhval-ruhiyyəsi alovlandırılır, silahlara çox böyük vəsait xərclənir və ermənifobiya rəsmi siyasətə çevrilib. Paşinyan daha sonra deyib: "Faktiki olaraq, qarşı tərəf Dağlıq Qarabağı sovet dövründə olduğu statusa qaytarmaq istəyir. Ancaq bu səylər əbəsdir, çünki SSRİ dövründə Dağlıq Qarabağ Muxtar Vilayətinin xalqı öz müstəqilliyini elan edib və SSRİ-nin tərkibindən çıxaraq öz müqəddəratını təyinetmə hüququnu həyata keçirib. Azərbaycan da belə edib. Və Azərbaycanın bu cür mövqeyi Sovet İttifaqının reanimasiyası ideyasına bərabərdir.

Azərbaycan hökuməti Qarabağ münaqişəsini Ermənistanla Azərbaycan arasındakı ərazi mübahisəsi kimi təqdim edir. Biz münaqişənin bu cür təfsiri ilə tamamilə razı deyilik. Bu, Ermənistanla Azərbaycan arasında mübahisə deyil. Bu mübahisə ərazi iddiaları ilə bağlı deyil. Söhbət insanların, kişilərin və qadınların öz vətənlərində əsrlər boyunca əcdadlarının yaşadıqları həyatı yaşamaq hüququndan gedir. Təəssüf ki, Azərbaycan hakimiyyəti bu adamlarla danışmaq istəmir, çünki onu ancaq ərazilər maraqlandırır, insanlar yox. Daha doğrusu, insanları olmayan ərazilər".

Göründüyü kimi, Paşinyan növbəti dəfə görünməmiş bir həyasız açıqlama ilə çıxış edib. Çünki Azərbaycanla yanaşı, bütün dünya, o cümlədən, beynəlxalq təşkilatlar Qarabağ münaqişəsini ərazi mübahisəsi kimi qəbul edirlər. O cümlədən, ATƏT-in Minsk Qrupu məsələyə bu cür yanaşır. Paşinyan isə bütün bunlara qarşı gedir.

Maraqlıdır, ATƏT-in Minsk Qurupu buna tutarlı şəkildə öz reaksiyasını verəcəkmi? Halbuki, bu çox vacib məsələdir.

Məsələyə münasibət bildirən politoloq Elçin Mirzəbəylinin sözlərinə görə, ATƏT-in Minsk Qrupu, əslində, dərhal buna öz reaksiyasını bildirməli idi: "Belə baxanda ATƏT-in Minsk Qrupu Paşinyanın avqustun 5-də Xankəndidə səsləndirdiyi sərsəm fikirlərə də reaksiya verməli idi. Ancaq biz bunun şahidi olmadıq. Sadəcə olaraq, yalnız Rusiya tərəfi danışıqlar prosesinin fəlsəfəsinə zidd açıqlamalar verməyin doğru olmadığını dedi. Ancaq Minsk Qrupunun timsalında hər hansı bir addım görmədik. İndi də BMT Baş Assambleyasının sessiyasında Paşinyanın növbəti həyasız açıqlamasının şahidi olduq. Paşinyanın danışıqlar prosesinin bütün mahiyyətinə, fəlsəfəsinə zidd olan fikirlər səsləndirməsi, əslində, növbəti provokasiyadır. Bu həm də bir neçə amilə xidmət edir. Paşinyan, nəyin bahasına olursa-olsun, çalışır ki, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi prosesindən kənarda qalsın. Bu proses onun hakimiyyətdə olduğu dövrdə baş verməsin. Ona görə də o, daha sərt bəyanatlar verərək münaqişənin həllini uzadır. Digər tərəfdən, onun belə açıqlama ilə çıxış etməsi Paşinyanın özünün prinsiplərinə və ənənələrinə uyğun olan yanaşmadır. Ortada heç bir yenilik görmürük. Paşinyan hakimiyyətə gələndən Dağlıq Qarabağla bağlı ziddiyyətli və yalan bəyanatlar verir. Özünün nə qədər böhtançı, öhdəliklərinə sadiq qalmayan bir insan olduğunu da sübuta yetirib. Paşinyanın BMT Baş Assambleyasının 74-cü sessiyasında səsləndirdiyi o sərsəm açıqlamaya ATƏT-in Minsk Qrupu həmsədrləri reaksiya verməlidirlər. Həmsədrlər buna reaksiya verməyə borcludurlar. Çünki həmsədrlər həm də BMT Təhlükəsizlik Şurasının daimi üzvləridirlər".

***Vidadi ORDAHALLI***

# Tramp haqqında impiçment başladılmasına səbəb olan məktub açıqlandı, şikayətçininsə MKİ agenti olduğu ortaya çıxdı

**ABŞ Prezidenti Donald Tramp haqqında impiçment başladılmasını tətikləyən, Ukrayna lideri ilə telefon danışığı barədə bildiriş məktubu göndərən şəxsin ABŞ Mərkəzi Kəşfiyyat İdarəsinin (MKİ) rəsmisi olduğu ortaya çıxıb.**



Baki-xeber.com xarici mediaya istinadən xəbər verir ki, "New York Times"a məlumat verən şəxsin kimliyini bilən üç mənbənin ifadələrinə görə, Trampla Ukrayna prezidenti Vladimir Zelenski arasında telefon danışığından şikayət edən şəxs kişi cinsindəndir və bir müddət Ağ Evdə işləmək üçün görəvləndirilib.

MKİ əməkdaşı olduğu iddia olunan şəxs Ağ Evdəki vəsifəsini başa vurduqdan sonra MKİ-yə qayıdıb. Vəkili isə müştərisi olan şikayətçinin MKİ-yə işlədiyini təsdiqləməyib, onun adını gizli saxlamaq hüququna malik olduğunu söyləyib.

ABŞ-ın Milli Kəşfiyyat direktoru vəzifəsini icra edən Cozef Makuayer Konqresin Kəşfiyyat Komitəsi qarşısında verdiyi ifadədə məlumat verənin şəxsiyyəti barədə heç bir məlumata sahib olmadığını deyib. Makuayer sözügedən şəxsin təhlükəsizliyinin onlar üçün prioritet olduğunu vurğulayaraq, vəzifədən sui-istifadə barədə iddialar barədə məlumat verməyə cəsarət edənlərin qorunmalı olduğunu söyləyib.

Bundan əvvəl ABŞ Nümayəndələr Palatasının Kəşfiyyat Komitəsi Trampla Zelenski arasındakı telefon danışığını ictimaiyyətə açıqlayıb.

Məktubda Trampın sözügedən görüşdə 2020-ci il prezident seçkisi öncəsi siyasi rəqibinə qarşı xarici bir prezidentdən müdaxilə tələb etdiyi bildirilir. Trampın siyasi rəqiblərindən birinin araşdırılması üçün xarici bir ölkəyə təzyiq göstərdiyi, bunun konstitusiyaya zidd olduğu qeyd edilir.

"Rəsmi vəzifədə olduğu müddətdə ABŞ Prezidentinin 2020-ci il seçkisində xarici bir ölkədən müdaxilə tələb etmək məqsədilə vəzifəsindən sui-istifadə etdiyinə dair bir çox dövlət məmurundan məlumat aldım" - məktubda deyilir.

Hadisələrin birbaşa şahidi olmadığını, ancaq səlahiyyətlilərdən aldığı məlumatların inandırıcı olduğunu deyən kəşfiyyatçı Trampın şəxsi və siyasi maraqları naminə vəzifəsindən sui-istifadə etdiyini, bunun da milli təhlükəsizliyə təhlükə yaratdığını iddia edib.

Qeyd edək ki, ABŞ mediasının açıqlamalarından sonra Nümayəndələr Palatasında Demokratlar tərəfindən başladılan impiçment prosedurunun əsassız olduğunu deyən Tramp Demokratların bu addımına sərt reaksiya verməşdi. "Demokratlar Respublikaçılar Partiyası və onun müdafiə etdiyi hər şeyi parçalamağa çalışır. Bir sırada durun, oyunları görün və mübarizə aparın. Bura bizim ölkəmizdir!" - Tramp deyib.

ABŞ prezidenti başqa bir açılamasında isə "Ukraynanı Co Baydeni araşdırmağa məcbur et" iddiaları ilə bağlı "Mən heç kimə hədə-qorxu gəlmədim. Ortada bir təzyiq yoxdur. Ortada heç bir şey yoxdur. Bu böyük bir yalandır" deyib.

Bununla belə, Tramp Co Bayden və oğlunun Çin və Ukraynadakı əlaqələrinin araşdırılmalı olduğunu və bunun şəffaf olması gərəkdiyini vurğulayıb.

"Ukraynaya təzyiq" iddiaları ilə bağlı açıqlama verən Zelenski isə Trampla görüşün normal keçdiyini deyib: "Danışığımızın mətnini gördünüz. Bir çox məsələni müzakirə etdik. Mətndən də göründüyü kimi, kimsə mənə təzyiq göstərməyib".

**Hərbi müstəvidə Azərbaycan ordusunun Ermənistanla müqayisədə kifayət qədər böyük üstünlüyə malik olması bütün dünya miqyasında məlum həqiqətdir. Bu fonda erməni tərəfini narahat edən əsas məqamlardan biri isə ölkəmizin malik olduğu pilotsuz uçuş aparatlarıdır (PUA).**

# Azərbaycan PUA-ları düşmənin "yuxusunu qaçırıb"

Belə aparatların həm yerli istehsalı həyata keçirilir, həm də Azərbaycan onun idxalını reallaşdırır.

Qeyd edək ki, bu vaxta qədər Azərbaycan pilotsuz uçuş aparatlarını əsas etibarı ilə İsraildən alıb. Lakin yaxın tezlikdə qardaş Türkiyədən də belə aparatların alınması gözlənilir. Erməni mediası yazır ki, pilotsuz uçuş aparatları Azərbaycana mühüm üstünlüklər qazandırır və 2016-cı ilin aprel döyüşlərində də ordumuzun belə aparatlardan istfiadə edərək düşmənə ciddi zərbələr vurması ermənilərin yadından çıxmayıb. Son günlərdə isə erməni tərəfinin bu xüsusda diqqət çəkdiyi əsas məqamlardan biri ordumuzun cari il ərzində istifadə etdiyi "SkyStriker" pilotsuz uçuş aparatlarıdır. Xatırladaq ki, sentyabrın 16-dan 20-dək keçirilən hərbi təlimlər zamanı ordumuz bu aparatlardan istifadə edib. Belə ki, ordunun genişmiqyaslı əməliyyat-taktiki təlimlərinin döyüş atışlı əsas mərhələsində silahlanmaya yeni daxil olmuş "SkyStriker" "gəzən sursat"la atış həyata keçirilib. Müdafiə Nazirliyinin bununla bağlı yayımladığı videogörüntülərdə "SkyStriker"lə hədəfin vurulması öz əksini tapıb. İsrailin "Elbit Systems" şirkətinin istehsalı olan "SkyStriker" "gəzən sursat" və ya başqa sözlə, kamikadze pilotsuz uçuş aparatının ilk xarici istifadəçisi Azərbaycanın Dövlət Sərhəd Xidməti olub. Bu qurumun ardınca Müdafiə Nazirliyi də "SkyStriker"iin istifadəçiləri sırasına qoşulub.

Bir daha qeyd edək ki, Azərbaycan sözügedən hərbi pilotsuz uçuş aparatlarını əldə edən ilk xarici ölkədir. Özü də "SkyStriker" digər pilotsuz uçuş aparatlarından bəzi xüsusiyyətlərinə görə əhəmiyyətli dərəcədə fərqlənir. Onlar daha çox dəqiqliyə və uzaq məsafələrdəki hədəfləri vurmaq qabiliyyətinə malikdirlər. Rus hərbi ekspert Aleksandr Yermakov bildirir ki, "SkyStriker" çox müasir silahdır. O, hədəf sahəsinə buraxılandan bir müddət sonra onu məhv edir. Özü də bunu bomba və yaxud raket vasitəsilə deyil, daxili enerjisi sayəsində özünü hədəfə çırpmaq yolu ilə edir: "Bununla yanaşı, layiqli hədəf tapılmasa, bu dron geri qayıda və endikdən sonra təkrar istifadə edilə bilər". Yermakov bildirib ki, biz "SkyStriker"dən danışırıqsa, burada söhbət 5 və ya 10 kiloqramlıq başlığa malik, məhvetmə məsafəsi 20 kilometrə qədər olan rəqəmsal cihazdan gedir: "Bu, iriçaplı mərmi ilə müqayisə edilə bilər və onun mövcud olduğu sahədə manevrə yaratma vaxtı iki və ya bir saatdır. Maksimal sürət yığdıqda bu elektrik mühərrikli kiçik təyyarənin səsi, demək olar ki, eşidilmir. Onun taktiki üstünlüklərindən biri də sutkanın qaranlıq vaxtlarında kiçik hədəflərə qarşı təkbaşına gizli zərbələr endirmə qabiliyyətinin olmasıdır".



Qeyd edək ki, "SkyStriker" və ya başqa adı ilə desək, kamikadze dron o qədər də böyük olmayan pilotsuz uçuş aparatıdır. O, itələmə qüvvəsi verən propeller və elektrik mühərriki ilə təchiz edilib. Çəkisi 35 kiloqram, müxtəlif məqsədli döyüş hissələri isə 5 kiloqramdan 10 kiloqrama qədərdir. "SkyStriker" iki saata qədər havada qala bilir. Dronu idarə edən şəxs onu hədəfə doğru yönəldə, praktiki olaraq təmas nöqtəsinə çatdıra bilər və eyni zamanda, hücumu ləğv etmək imkanına da malikdir. Uçuş vaxtı diqqətəlayiq hədəf müəyyən edilməyibsə, PUA geri qayıda və paraşütün köməyi ilə yerə enə bilər. Onun əməliyyat sistemi istənilən hədəfi istənilən istiqamətdən, istənilən bucaq altında məhv etməyə imkan verir. Onu istehsal edən "Elbit Systems" isə İsrail hərbi sənaye kompleksinin PUA istehsalı üzrə ixtisaslaşmış dünyaca məşhur şirkətidir. Onu da xatırladaq ki, Azərbaycan ordusunun ixtiyarında artıq İsrailin "Israel Aerospace Industries" şirkətinin istehsalı olan "Harop" və "Aeronautics Defense Systems" şirkətinin istehsalı olan "Orbiter 1K" ("Zərbə-K") birdəfəlik kiçik zərbə PUA-ları var. 2016-cı ilin aprelində dördgünlük müharibənin gedişində həmin PUA-lardan erməni mövqelərinə zərbələrin endirilməsində istifadə edilib. "Harop"dan fərqli olaraq, "SkyStriker" və "Orbiter 1K", demək olar ki, səssizdir, çünki onlar elektrik mühərrikləri ilə hərəkətə gətirilir.

Bununla yanaşı, Azərbaycan Hərbi Hava Qüvvələrinin inventarında İsrail istehsalı olan "Orbiter-2M" və "Aerostar" tipli pilotsuz uçuş aparatlarına rast gəlmək olar. 2011-ci ildə ölkəmizlə İsrail şirkətinin birgə qurduğu "AZAD sistemlər" müəssisəsi fəaliyyətə başlayıb. Bu müəssisədə "Orbiter-2" pilotsuz uçuş aparatlarının istehsalı həyata keçirilir. İndinin özündə ordumuzda istifadə edilən "Heron" və "Hermes" tipli pilotsuz uçuş aparatları da İsrail istehsalıdır. Ümumiyyətlə, İsrail yalnız öz ordusuna verdiyi və digər ölkələrin malik olmadığı pilotsuz uçuş aparatlarının istehsalını Azərbaycana etibar edir. Digər tərəfdən, Azərbaycan uzun müddətdir ki, hərbi-siyasi sahədə İsrail dövləti ilə əməkdaşlıq edir və bu əməkdaşlıq nəticəsində Təl-Əvivdən təkcə PUA-lar yox, digər döyüş texnikaları da alınıb. Bir daha qeyd edək ki, hələ məlum aprel döyüşləri zamanı Azərbaycan İsraildən aldığı silahlardan tank əleyhinə "Spike" raketini və "Harop" pilotsuz uçan döyüş sistemini tətbiq edib. Həmin vaxt bu silahlar vasitəsilə ermənilərin xeyli canlı qüvvəsi məhv edilib.

Məhz o vaxtdan Azərbaycanın İsraildən aldığı bu və digər silahlar Ermənistan üçün əsl kabusdur. Elə indinin özündə də İrəvanı ciddi narahat edən əsas məqamlardan biri İsrailin tutduğu mövqe fonunda Azərbaycana silah satışını davam etdirməsi və həmin silahların yeni Qarabağ savaşında tətbiq ediləcəyi ilə bağlıdır. İsrailli politoloq Zvi Maqen isə qeyd edir ki, erməni tərəfinin narahatlığına baxmayaraq, ölkəsi Azərbaycana müasir silahların satışını davam etdirəcək: "İsrailin strateji xarici dövlət siyasəti xətti onun hakimiyyətindəki konkret şəxslərdən və hansısa başqa ölkə ilə yeni siyasi münasibətlərin qurulacağından asılı deyil. Və Azərbaycanla əməkdaşlıq, şübhəsiz, İsrailin bu dövlət siyasətinin tərkib hissəsidir. Bu günə qədər hazırlanan və silahlanmaya qəbul edilən İsrail hava hücumundan müdafiə sistemləri dünyadakı bütün analoqlardan üstündür. Onların bir çoxunun ilk xarici alıcısı isə Azərbaycandır və bu davam edəcək".

***Tahir TAĞIYEV***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Erməni politoloqlar da bunu deyir - Bakı-Moskva münasibətlərinin indiki vəziyyəti Azərbaycanı çox güclü mövqelərə çıxarır

*Azərbaycan Ermənistanı tam çökmüş vəziyyətə salır...*

**Dağlıq Qarabağ münaqişəsindən bəhs edərkən indi daha çox belə bir məqama diqqət yönləndirilir ki, konfliktin dinc müstəvidə həlli artıq imkansız hala gəlib. Elə bu səbəbdəndir ki, Nyu-Yorkda Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin görüşü fikir mübadiləsindən o tərəfə keçməyib.**

Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarovun Qoşulmama Hərəkatının Nazirlər Konfransında çıxışı zamanı səsləndirdiyi fikirlər də dinc həll yoluna dair hansısa nikbinlik yaratmır: "Təəssüf ki, Ermənistanla Azərbaycan arasında münaqişənin həlli ilə bağlı bu dəfə də sizinlə bölüşmək üçün yaxşı xəbərim yoxdur. Ermənistan, göründüyü kimi, BMT Təhlükəsizlik Şurasının Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasına dair məcburi xarakter daşıyan tələblərin əks olunduğu qətnamələrinə məhəl qoymamaqda davam edir. Beynəlxalq ictimaiyyətin əvvəlki xəbərdarlıq və qınaqlarına baxmayaraq, o cümlədən münaqişənin siyasi həlli istiqamətində davam edən səylər fonunda, Azərbaycanın işğal olunmuş ərazilərinin müstəmləkəyə çevrilməsi və ilhaqını möhkəmlətmək məqsədi ilə qəsdən qeyri-qanuni fəaliyyət həyata keçirilməkdədir. Bunlara, digərləri ilə yanaşı, məskunlaşdırma, tarixi və mədəni irsin məhv edilməsi və mənimsənilməsi, işğal olunmuş ərazilərdə aktivlərin, təbii sərvətlərin və digər maddi nemətlərin istismarı və talan edilməsi və qanunsuz ticarəti daxildir". Beləliklə, bu fikirlərdən də aydın sezildiyi kimi, Ermənistan üzündən münaqişənin dinc yolla həlli artıq mümkünsüz hala gəlib.

Yaranmış vəziyyətdə indi belə bir fikir daha çox hakim olmağa başlayıb ki, Dağlıq Qarabağ münaqişəsinin istənilən an yenidən alovlanması mümkündür. Ermənistanın "İrates" qəzeti yazır ki, əslində, Azərbaycan hadisələrin bu cür gedişinə müəyyən müddətdir hazırlıq görür və Azərbaycan ordusunun son dövrlərdə intensivləşən hərbi təlimləri də bunun daha bir təzahürüdür: "Ermənistanda isə vəziyyətin ürəkaçan olmadığını söyləmək lazım gəlir. Amma problemin ən qorxulu tərəfi İrəvanın Moskva ilə korlanmış münasibətləridir. Artıq sirr deyil ki, 2016-cı ilin aprel döyüşlərinin genişlənməsinin qarşısı bilavasitə Rusiyanın prosesə müdaxiləsi ilə alınıb. Amma indi vəziyyət fərqlidir və Moskva Ermənistandan küskünlüyünü gizlətmir. Bunun da nəticəsi olaraq yeni Qarabağ savaşına Moskvanın laqeyd qalması Ermənistan üçün daha ağrılı nəticələrə gətirib çıxara bilər. Bəs bunları baş nazir Nikol Paşinyan nədən nəzərə almır?".

Qeyd edilənlər fonunda erməni tərəfinin xüsusi nəzər saldığı məqamlardan biri bir neçə gün sonra Avrasiya İqtisadi Birliyinin İrəvanda baş tutacaq iclası ilə bağlıdır. İclasda üzv dövlətlərin prezidentləri, o cümlədən Rusiya dövlət başçısı də iştirak edəcək. Artıq erməni mediası Putinin səfərinin bir neçə saat olacağı və həmin gün Ermənistanı tərk edəcəyi ilə bağlı xəbərlər yayıb. Diqqət ona yönəldilir ki, Ermənistan hakimiyyətinin anti-Rusiya mövqeyi, Rusiya dövdət başçısının ikinci prezident Robert Köçəryanın həbsinə açıq-aşkar mənfi münasibəti, Rusiya tərəfindən sabiq müdafiə naziri, general-polkovnik Mikayel Harutyunyan və keçmiş deputat Mihran Poqosyanın təhvil verilməməsi, AŞPA-da Rusiyanın quruma geri dönüşü ilə bağlı səsvermədə Ermənistan nümayəndə heyətinin rəhbəri, Ermənistan parlamentinin Xarici Əlaqələr Komitəsinin sədri Ruben Rubinyanın əleyhinə səs verməsi və nəhayət Ermənistanda rus müxalifətçisi Vitali Şişkinə sığınacaq verilməsi Ermənistan-Rusiya münasibətlərində ciddi çatların yaranmasının təsdiqinə çevrilib.

Erməni ekspert Karen Veranyan bildirir ki, bunlar Ermənistan və Rusiyanın maraqlarının artıq fərqli məcrada inkişaf etdiyini nümayiş etdirir: "Aydın maraqlar var. Rusiya öz mənfəətlərini güdür və Ermənistan öz maraqlarını uyğun şəkildə nizamlamağa, mövqelərini düzəltməyə çalışır. Rusiyanın Ermənistanla, xüsusən də daha dərin sistemli şəkil alan problemlərin olması, Ermənistana nisbətən, onun üçün ağrısız olacaq. Rusiya Ermənistana təsirini indiki hakimiyyət üzündən itirərsə, mütləq bunun əvəzini çıxacaq. Moskva İrəvanın fəaliyyəti ilə ABŞ və Avropanın Cənubi Qafqazda Rusiya siyasəti və hərbi təsirini sıxışdırıb çıxarmağa qətiyyən razı olmaz. Buna görə Ermənistanın cəzalanması qaçılmaz olacaq. Bax, bu zaman Qarabağ məsələsində ciddi yeniliklərin olması tamamilə gözləniləndir. Söhbət hərbi əməliyyatların yenilənməsi və bu zaman Rusiyanın Azərbaycanın yanında ola bilməsindən gedir. Bunun nəticələrinin necə olacağını isə təsəvvür etmək elə də çətin deyil".

Digər erməni politoloq Qevorq Qukasyan isə ilk olaraq diqqəti buna yönəldir ki, Putinin Ermənistana səfərinin məqsədi ilk növbədə Avrasiya İqtisadi Birliyinin iclasında iştirak etməkdir və Ermənistan-Rusiya münasibətləri ilə əlaqələndirilməməlidir, amma bu cür səfərlər dövlətlərarası münasibətləri müzakirə etmək üçün çox əlverişlidir: " Putin Ermənistana gələrsə və yalnız Avrasiya İqtisadi Birliyinin Ali Şurasında iştirak edərsə, Ermənistan-Rusiya münasibətlərindəki böhrandan danışa bilərik. İki ölkənin liderlərinin bir-biri ilə müzakirə edəcəyi bir şey yoxdursa, Ermənistan-Rusiya münasibətlərində yüksək səviyyəli dialoqun faktiki olaraq olmadığını bildirə bilərik, əks halda buna bir fürsət yaradılır. Müttəfiq dövlətlər olma baxımından belə bir fürsət əldən verilmir. Lakin Ermənistan artıq Rusiyanın əvvəlki müttəfiqinə oxşamır. Rusiyanın regionda çəkisini nəzərə alsaq, bundan Ermənistanı yaxşı nəsə gözləmədyini deyə bilərik. Hər halda, Azərbaycanın bu vəziyyətdən Qarabağ məsələsində yararlanmağa çalışacağı şübhə doğurmur. Bu gün heç kim sabit xarici siyasətə malik olmayan bir ölkə ilə əlaqə qurmaq istəmir. Məsələn, ABŞ-la hər hansı bir yüksək səviyyəli dialoqun qurulması cəhdini xatırlayırsınız? Avropa İttifaqı rəhbərliyi ilə bir və ya iki həm də mənfi bir sonluqla dialoqa cəhdlər edilib. Başqa sözlə, problem təkcə Rusiya istiqamətində deyil, ümumi gündəm böhranı var. Xarici siyasətdə bu hakimiyyət bir görüş təklif edə, gündəliyi tərtib edə bilməyib. Deməli, bizim xarici siyasətdə ciddi problem var. Bundan isə bizə qarşı olanlar məharətlə istifadə edir".

Ümumiyyətlə, faktdır ki, Nikol Paşinyan baş nazir olandan hərəkətləri Moskvanı qıcıqlandırır. Mövcud Ermənistan iqtidarı bütün istiqamətlərdə Rusiyanın maraqlarına uyğun gəlməyən addımlar atır. Ermənistanda Rusiyanın dayaqlarının laxladılmasına görə Moskva bir neçə dəfə narazılıq mövqeyini bildirib və Paşinyan hakimiyyətinə xəbərdarlığını edib. Buna baxmayaraq, Paşinyan Kremlə tərs gələn siyasətini davam etdirməkdədir. Bu durumda Moskvanın daha sərt addımlar atması və bunun Qarabağ münaqişəsini də ehtiva etməsi təbii qarşılanmalıdır. Eyni zamanda, baş verənlərin nəticəsi olaraq Rusiyanın Azərbaycanla münasibətlərə indi daha çox diqqət yetirməsi də mühüm faktordur. Bu arada onu da xatırladaq ki, Ermənistana səfərdən iki gün sonra Soçidə Azərbaycan Prezidenti İlham Əliyevin də iştirak edəcəyi "Valday" Klubunun iclası keçiriləcək. Kremlin mətbuat katibi Dmitri Peskovun sözlərinə görə, ikitərəfli görüşlər də keçiriləcək. Beləliklə, Paşinyanın ikitərfli görüş xahişini rədd edən Putin nümayişkarənə şəkildə Azərbaycan dövlət başçısı ilə ikitərəfli qaydada danışıqlar aparacaq. Bunun özü də Paşinyana verilmiş mühüm mesaj sayılır. Elə erməni politoloq Qevorq Qukasyan da məsələyə bu prizmadan yanaşır: "Aydındır ki, Putin-Əliyev görüşünün əsas mövzularından biri Qarabağ münaqişəsi olacaq. Getdikcə Azərbaycanın Rusiya üçün vacib bir ölkə olması faktı göz qabağındadır. Mövcud vəziyyətdə Ermənistanın Rusiya ilə yaxşı qonşuluq münasibətlərini daha da dərinləşdirməsi vacibdir, əks təqdirdə öz quyruğunun dalınca düşərək və Rusiya ilə münasibətləri pozaraq, gələcəkdə daha da ciddi problemlərlə üzləşə, çağırışlarla qarşı-qarşıya qala bilərik. Təəssüf ki, elə hadisələr də bu istiqamətdə inkiaşf edir. Bunun ağrısını isə Ermənistan bir çox istiqamətlərdə, o cümlədən Qarabağ məsələsində çəkməli olacaq". Bütün bu qeyd edilənlər artıq Qarabağ münaqişəsi ətrafında olduqca maraqlı bir vəziyyətin yaranmaqda olduğunu göstərir.

Faktdır ki, Moskva ilə İrəvanın münasibətlərində böhran vəziyyətinin yaranması Ermənistanın siyasəti üçün böyük bir faciədir. Rusiya-Ermənistan münasibətlərinin mövcud yeni geosiyasi reallıqlar fonunda kritik həddə olması, şübhəsiz ki, Qarabağ münaqişəsinin gedişinə mütləq mənada təsirini göstərəcək. "Lragir" portalının yazdığına görə, Ermənistan-Rusiya münasibətləri ümumiyyətlə kritik həddə yaxınlaşır: "Belə vəziyyətdə Rusiyanın hazırda Ermənistana dəstək verə bilməməsi mütləq ona gətirib çıxaracaq ki, İrəvan tamamilə təklənmiş vəziyyətə düşəcək. Bunun hansı fəsadlara gətirib çıxaracağını təsəvvür etmək elə də çətin deyil. Təklənmiş Ermənistan regionda, ən azından, Azərbaycan və Türkiyənin daha sərt təzyiqlərinə məruz qalacaq. Təbii ki, bu durumda Qarabağ münaqişəsi ilə bağlı vəziyyətin əsaslı surətdə dəyişməsi də qaçılmazdır. Amma bu dəyişmə qətiyyən Ermənistan üçün məqbul olmayacaq. Hakimiyyətin bütün bunlar ətrafında daha geniş düşünməsi olduqca mühümdür. Çünki söhbət Ermənistanın taleyindən gedir". Bütün bunlar onu göstərir ki, Qarabağ münaqişəsi ətrafında vəziyyət indi daha maraqlı məcrada inkişaf etməyə başlayır.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

# Xatirə Kitabı Redaksiyası daha bir şəhid haqqında kitab hazırladı - Xəqani Əkbərov...

**Sentyabrın 27-də Əl Oyunları Sarayı Konfrans zalında Qarabağ savaşında itkin düşmüş və hələ də əzizləri tərəfindən yolu gözlənilən Xəqani Eyvaz oğlu Əkbərovun döyüş və keçdiyi həyat yolundan bəhs edən "Gözlər yoldan yığılarmı" kitabının təqdimat mərasimi keçirildi. Respublika Xatirə Kitabı Redaksiyası və "Bakı-Xəbər" qəzetinin birgə layihəsi olan "Şəhidlər ölməz, Vətən bölünməz" silsiləsindən nəşr edilən "Gözlər yoldan yığılarmı" sənədli povestinin müəllifi tanınmış jurnalist-publisist Nəzirməmməd Zöhrablıdır.**

Qeyd edək ki, layihənin rəhbəri Respublika Xatirə Kitabı Redaksiyasının baş redaktoru Nəzakət Məmmədova, rəyçisi "Bakı-Xəbər" qəzetinin baş redaktoru Aydın Quliyev, redaktoru isə şair-publisist Zülfüqar Şahsevənlidir.

"Gözlər yoldan yığılarmı" kitabının təqdimatına həsr edilən tədbirin aparıcısı, millət vəkili, Azərbaycan Mətbuat Şurasının sədri Əflatun Amaşov giriş çıxışında bildirdi ki, Vətənin ərazi bütövlüyünün qorunması uğrunda fədakarlıq göstərən və qanlı döyüşlərdə itkin düşən Xəqani Eyvaz oğlu Əkbərov bir qəhrəmandır. O vurğuladı ki, Mədəniyyət Nazirliyi nəzdində fəaliyyət göstərən Respublika Xatirə Kitabı Redaksiyası indiyə kimi 17 cild kitab nəşr edib. "Xatirə Kitabı Redaksiyasının baş redaktoru Nəzakət Məmmədovanın rəhbərliyi ilə işıq üzü görən, təqdimatına toplaşdığımız bu kitab isə "Şəhidlər ölməz, Vətən bölünməz" seriyasından olan sayca üçüncü kitabdır. Təqdimatına toplaşdığımız bu kitab Azərbaycanın qəhrəman oğlu, cəsur kəşfiyyatçı, Qarabağ müharibəsində itkin düşən şəhid Xəqani Əkbərovun ömür və döyüş yolundan bəhs edir. Əgər Xəqani yaşasaydı, onun 50 yaşı olacaqdı. O, 25 il bundan əvvəl itkin düşüb, şəhid olub. Hələ bu vaxta qədər onun doğmaları yolunu gözləyirlər. Kitabın müəllifi, tanınmış jurnalist Nəzirməmməd Zöhrablı bu kitabı hazırlayarkən kifayət qədər iş aparıb, qəhrəmanın döyüş yoldaşları ilə əlaqə yaradıb, onlarla görüşüb, onun necə döyüşdüyünü, hansı vəziyyətdə itkin düşdüyünü qeyd edib. O bu kitabı döyüş dostlarının, ailəsinin xatirələri əsasında ərsəyə gətirib. Kitabın birinci hissəsi xatirələr bölməsidir. Burada əsasən Xəqaninin döyüş yoldaşlarının xatirələri əsasında onun döyüş şücaətlərini əks etdirib. Kitabın ikinci hissəsində qeyd edilir ki, 25 ildir ana öz övladının yolunu gözləyir, ana inanır ki, övladı sağdır və nə vaxtsa qayıdacaq. Bu publisistik bədii əsər o məziyyətlərinə görə daha çox diqqəti cəlb edir ki, ana öz oğlunu Vətən uğrunda döyüşə göndərir və övladı Vətən uğrunda döyüşüb, itkin düşüb, onun taleyindən xəbər yoxdur, qəbri hardadır...

Xəqani İsmayıllı rayonunun Gəraybəyli kəndində doğulub, Dövlət Neft Kimya İnstitutuna daxil olub və təhsilini yarımçıq qoyaraq könüllü olaraq döyüşə gedib. O bəlkə də müharibəyə getməyib elə bizim aramızda da ola bilərdi, amma o, Vətənin dar günündə döyüşə gedib. Qəhrəmanlar ölmür".

Ə.Amaşov qeyd etdi ki, bu vaxta qədər "Gözlə, gələcəyəm", "Bir xatirə dəftərinə bənzəyir ömür" kitabları işıq üzü görüb.

Sonra Ə.Amaşov sözü nəşrin rəyçisi, "Bakı-Xəbər" qəzetinin baş redaktoru Aydın Quliyevə verdi. A.Quliyev çıxışında vurğuladı ki, Respublika Xatirə Kitabı Redaksiyası ilə "Bakı-Xəbər" qəzetinin birgə layihəsi olan "Şəhidlər ölməz, Vətən bölünməz" seriyasından nəşr edilən kitablar dövlət və ictimai maraqlarla səsləşən, çox əhəmiyyətli, çox dəyərlidir. "Bu layihə çox böyük dövlətçilik dəyəri, ictimai əhəmiyyəti olan bir layihədir. Respublika Xatirə Kitabı Redaksiyasının həyata keçirdiyi layihələr çox rəngarəngdir, müxtəlifdir. Bilirsiniz ki, indiyə qədər Xatirə Kitabının 16 cildi və xüsusi buraxılışı işıq üzü görüb. Bu redaksiyada Böyük Vətən Müharibəsində itkin düşmüş soydaşlarımız haqqında kitablar hazırlanır. Eləcə də redaksiya erməni təcavüzü nəticəsində itkin düşən vətəndaşlarımızla bağlı ayrıca xüsusi buraxılış nəşr etdirib. Bildiyim qədər, onun növbəti cildləri də çapa hazırlanır. Respublika Xatirə Kitabı Redaksiyasının həyata keçirdiyi bu layihələrin içində ən dəyərli layihələrdən biri də şəhidlərimiz haqqında belə sənədli-bədii povestlərin yazılmasıdır. Şadam ki, şəhidlərimiz haqqında yazılan hər üç kitabın materiallarının ilkin təqdimatını ictimaiyyətə biz - "Bakı-Xəbər" qəzeti edib. Mən Nəzakət xanıma və redaksiyanın bütün kollektivinə təşəkkürümü bildirirəm ki, bu vacib missiyanın həyata keçirilməsində əhəmiyyətli rollardan birini oynamaq bizə - "Bakı-Xəbər" qəzetinin kollektivinə qismət olub. Biz o yazıların cəmiyyətə ilkin təqdimatını həyata keçirən mətbuat orqanına çevrilmişik. Bu nöqteyi-nəzərdən də bizim adımız tarixə düşür. Şəhidlər ölməzdir və şəhidlər haqqında yazılan yazılar da, əsərlər də ölməzdir. Bu kitabın yazılmasının, təbii ki, arxasında böyük zəhmət dayanır. Bu işdə müəllifin, eləcə də onun çapa hazırlanmasında əməyi olan insanların çox böyük zəhməti var. Əgər biz bu kitabın çapa hazırlanması ilə şəhidimizin qohumlarının, ailəsinin, yaxınlarının, azacıq da olsa, qəlbinə daxil ola bilmişiksə, onlara, azacıq da olsa, təsəlli verə bilmişiksə, özümüzü xoşbəxt hiss edirik".

Şəhidin yaxınlarına, qohumlarına tədbirdə iştirak etdiklərinə görə təşəkkür edən A.Quliyev qeyd etdi ki, əslində, bütün Azərbaycan vətəndaşlarının şəhidin ailəsinə borcu var. X.Əkbərovun bu gün öz xatirələri ilə aramızda olduğunu vurğulayan A.Quliyev bildirdi ki, şəhid bizim üçün bir and yerinə çevrilib.




***Əflatun Amaşov:*** *"Hələ bu vaxta qədər onun doğmaları yolunu gözləyirlər"*

***Aydın Quliyev:*** *"Əgər biz bu kitabın çapa hazırlanması ilə şəhidimizin qohumlarının, ailəsinin, yaxınlarının, azacıq da olsa, qəlbinə daxil ola bilmişiksə, onlara, azacıq da olsa, təsəlli verə bilmişiksə, özümüzü xoşbəxt hiss edirik"*

***Flora Xəlilzadə:*** *"Bu kitab bir təsəllidir"*

***Qərənfil Quliyeva:*** *"Biz şəhidlərimiz, qəhrəmanlarımız haqqında çox yazmalıyıq və onları tanıtmalıyıq, yaşatmalıyıq"*

***Qasım Həsənov:*** *"Məlum oldu ki, Xəqani və Fərhad itkin düşüblər..."*

***Zülfüqar Şahsevənli:*** *"Şəhidlər haqqında yazılan kitablar gələcək nəsillər üçün yadigardır"*

***Nəzirməmməd Zöhrablı:*** *"Xəqani məndən ötrü bu Vətəndə bizim həmişə ehtiyacımız olan birləşdirici simvoldur"*

***Nəzakət Məmmədova:*** *"İtkin düşmüş övladın yolunu gözləmək ağır işdir"*

Tədbirdə çıxış edən Əməkdar jurnalist Flora Xəlilzadə də X.Əkbərovun ömür və döyüş yoluna həsr edilən nəşrlə bağlı fikirlərini bölüşdü: "Ailəsində, nəslində kifayət qədər şəhid olan, onlar arasında Milli Qəhrəman adına layiq görülən bir nəslin nümayəndəsi kimi demək istəyirəm ki, belə kitablar yazmaq heç də asan deyil. Yox ki, faktları toplamaq, o izə düşmək çətindir, bunu yazarkən insanın içi ovulur, ürəyi üzülür. Bilirsiniz, bu kitab bir təsəllidir. Rahatlıq tapıram ki, biz bu təsəlliləri meydana gətiririk, tarixə qovuşdururuq, gələcək üçün bir arxiv, bir mənbə qoyuruq... Bizim hamımızın son dayanacağımız var, ancaq bizim şəhidlər ona görə xoşbəxtdirlər ki, onlar bizdən fərqləndilər, seçildilər və elə bir zirvəyə yüksəldilər ki, orada əbədiyaşarlıq qazandılar. Bir arzum var, qələbə soraqlı kitablar yazasınız ki, torpaqlar alındı. Bax, bu şəhidin ruhu narahatlıqdan qurtardı... Biz yazırıq. Biz bir anaya, bir valideynə, bir nəslə təsəlli qoyuruq, amma nə o gözlər yoldan yığışır, nə göz yaşları kəsilir, nə də o ürək ağrıları əksilir. Gün o gün olsun ki, biz şəhidlərin ruhu qarşısında xəcalət çəkməyək".

Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsinin dosenti Qərənfil Quliyeva da çıxışında şəhidlər haqqında yazmağın həddindən artıq çətin və iztirablı olduğunu bildirdi. "Mən 3 il 8 ay cəbhə müxbiri işləmişəm. Cəbhədə baş verənləri, şəhidləri, anaların göz yaşlarını çox görmüşəm. Ona görə də belə kitabların ərsəyə gəlməsi həddindən artıq çətindir. Amma çətin olmasına baxmayaraq, bu, şəhidlərimizin ruhu qarşısında bizim borcumuzdur. Hər bir qələm əhlinin borcudur ki, onların ruhunu bu kitablarla, yazılarla şad etsin. Heç olmasa gənc nəsli onlar kimi vətənpərvər, millətsevər, öz Vətəninə, yurduna bağlı olaraq yetişdirək. Bu baxımdan, müəllifə də minnətdarlığımı bildirirəm. Müəllif mənə daha çox yaxındır. Mən onun imzasını bu kitabın üzərində görəndə çox sevindim. Mən həmişə deyirəm ki, biz şəhidlərimiz, qəhrəmanlarımız haqqında çox yazmalıyıq və onları tanıtmalıyıq, yaşatmalıyıq. Arzu edirəm ki, elə zaman gəlsin, biz qələbə soraqlı kitablar yazaq".

Sonra isə Ə.Amaşov sözü X.Əkbərovun komandiri olmuş Qasım Həsənova verdi. Q.Həsənov əsgərinin qorxmazlığından, cəsurluğundan danışarkən bildirdi ki, Xəqani Vətəni canından çox sevirdi. Q.Həsənovun sözlərinə görə, onlara göstəriş gəlir ki, arxaya çəkilmək lazımdır, 18 əsgərdən 16-sı komandirlə birgə geri çəkilsə də, Xəqani döyüş yoldaşı Fərhadla geri çəkilməyib: "Xəqani və Fərhad arxaya çəkilmək istəmədilər. Deyirdilər ki, döyüşdə öndə olmalıyıq. Yəni 16 nəfər məni eşidib geri çəkilsə də, Xəqani və Fərhad geri çəkilmədilər. Biz geri çəkildik, ara sakitləşəndən sonra məlum oldu ki, Xəqani və Fərhad itkin düşüblər. Nə qədər axtarsaq da, onları tapa bilmədik. Qarşıda rusların "çyornaya koşka" deyilən alayı dayanmışdı".

Tanınmış jurnalist, cəbhə və şəhidlik mövzusunda kifayət qədər yazan, kitablar nəşr etdirən Zemfira Məhərrəmli də tədbirdə çıxışında X.Əkbərovun şəhidlik yolunu yüksək dəyərləndirdi: "Qələm əhli hər mövzudan yazır, amma ağrılı mövzulardan yazmaq həqiqətən də çox çətindir. Başqa sözlə, Vətən dərdindən yazmaq həmişə lazımdır. Vətən dərdindən yazmasaq, dərdlərimizi çatdırmasaq, olmaz. X.Əkbərov çox xoşbəxt bir insandır ki, şəhidlik zirvəsinə yüksəlib. Deyirlər ki, qəhrəmanlıq, igidlik ölümə bir atılım deməkdir. Əslində elədir. Şəhidlər öz həyatlarını heç vaxt düşünməmişlər, onlar Vətəni düşündülər, qarış-qarış itirilən, sinəmizdən ağır daş kimi asılan Vətən dərdini düşündülər. Ona görə də onlar şəhid oldular".

**(Ardı 11-ci səh.)**

*(Əvvəli 10-cu səh.)*

X.Əkbərovun dayısı, el ağsaqqalı Rəsul Cəfərov şəhid bacısı oğlundan danışarkən qəhərini gizlədə bilmədi. O bildirdi ki, Xəqani döyüşə könüllü gedib və müharibədə şücaətlə döyüşüb, itkin düşüb. Hələ də Xəqaninin yolunu gözlədiklərini deyən R.Cəfərovun sözlərinə görə, X.Əkbərov itkin düşdükdən sonra o, Xəqaninin qardaşı Knyaz Əkbərovla birgə bir neçə ay onun döyüşdüyü əraziləri qarış-qarış gəzib, eyni zamanda, müxtəlif təşkilatlara sorğu verməklə bacısı oğlundan bir soraq almaq istəyib, lakin heç bir informasiya əldə edə bilməyib.

R.Cəfərov "Gözlər yoldan yığılarmı" kitabının ərsəyə gəlməsində əməyi olan Respublika Xatirə Kitabı Redaksiyasının baş redaktoru Nəzakət Məmmədovaya, eləcə də kitabın müəllifinə, kitabın ərsəyə gəlməsində əməyi olan hər kəsə minnətdarlığını bildirdi.

Kitabın redaktoru, tanınmış şair-publisist Zülfüqar Şahsevənli isə çıxışında bildirdi ki, təqdim edilən bu kitab olduqca dəyərlidir. Respublika Xatirə Kitabı Redaksiyasının layihəsi əsasında nəşr edilən "Gözlər yoldan yığılarmı" kitabının "Şəhidlər ölməz, Vətən bölünməz" seriyasından üçüncü kitab olduğunu deyən Z.Şahsevənli bildirdi ki, hər üç kitabın boyu, biçimi eynidir. "Respublikada şəhidlər haqqında sistemli şəkildə kitabları Xatirə Kitabı Redaksiyası çap etdirir. Bu kitablar səriştəli, imzası respublikada tanınan həmkarlarımız tərəfindən yazılır. Şəhidlər haqqında yazılan kitablar gələcək nəsillər üçün yadigardır. Nəşr olunan hər üç kitabın qəhrəmanlarının hər biri nişanlıdır. Nişanlı olaraq ömürləri yarımçıq qırılıb. Bu kitab onların ailəsinə bir təsəllidir" - deyə Z.Şahsevənli qeyd etdi.

Kitabın müəllifi Nəzirməmməd Zöhrablı isə çıxışında bildirdi ki, əvvəlcə mövzu ilə tanış olub, sonra isə axtarışlara başlayıb. "Xəqani məndən ötrü nədir? Xəqani məndən ötrü bu Vətəndə bizim həmişə ehtiyacımız olan birləşdirici simvoldur. Xəqani məndən ötrü o mənada qiymətli adamdır ki, Vətən üçün canından keçib. Xəqaniyə deyiblər ki, nişanlı oğlansan, qal toyunu edək. Mən bütün axtarışlarımdan sonra belə başa düşdüm ki, Xəqani fikirləşib ki, mən gedib Vətəni qorumasam, heç İsmayıllı da qalmayacaq, onda nişanlımın üzünə necə baxacağam... Xəqani birləşdirici faktordur. Ona görə də Xəqani qəhrəmandır. Qəhrəmanlıq elə-belədə bilinmir, qəhrəmanlıq qəlbdə yaşayır-yaşayır və məqamı çatanda üzə çıxır. Belə kitabların yazılması, gələcək nəsillərə çatdırılması vacibdir" - deyə müəllif vurğuladı.

Şəhidin qardaşı Knyaz Əkbərov da çıxış edərək qeyd etdi ki, qardaşının döyüş yolu həqiqətən də gənc nəsil üçün böyük örnəkdir. Qardaşı itkin düşdükdən sonra onu axtardıqlarını, lakin bu 25 ildə ondan heç bir soraq ala bilmədiklərini dedi. O, həmçinin, təklif etdi ki, "Gözlər yoldan yığılarmı" kitabının təqdimat mərasimlərindən biri X.Əkbərovun doğulduğu Geraybəyli kəndində keçirilsin. K.Əkbərov, eyni zamanda, kitabın ərsəyə gəlməsində əməyi olanlara öz təşəkkürünü bildirdi.

Sonda Respublika Xatirə Kitabı Redaksiyasının baş redaktoru Nəzakət Məmmədova çıxış edərək kitabın ərsəyə gəlməsindən danışdı. "Bayaq Rəsul müəllim dedi ki, gözlər yoldan yığılmır. Mən başa düşürəm. Amma inanın ki, o son ümidin bitdiyi günə qurban deyənlər də, o günün sevincini yaşayanlar da olub. Yəni xəbər gəlib ki, o harada dəfn olunub, məzarı haradadır. Mən onun şahidi olmuşam. Redaksiyamıza gəlib bizə təşəkkür ediblər ki, siz öz yazınızla bizim gözümüzü yoldan yığdınız, biz artıq qurbanımızı kəsdik, gedib qəbrini ziyarət etdik. İtkin düşmüş övladın yolunu gözləmək ağır işdir. Mən Telli ananı şəxsən tanımırdım, amma mən onun belinin bükülməsini gördükdə inanın ki, uzun müddət o səhnəni unutmadım, hər an o səhnəni yaşadım. Allah bütün şəhidlərimizə qəni-qəni rəhmət eləsin. İnanın ki, 20 ildir mən öz sevincimi itirmişəm, demək olar, bir başqa insana çevrilmişəm.

Mən bura gələn hər bir insana, Əflatun müəllim, sizə təşəkkür edirəm. Sizə minnətdaram ki, yanımızdasınız. İşinizin çox olmasına baxmayaraq, bu işə dəyər verirsiniz. Üçüncü kitabımızdır ki, siz burada aparıcı olursunuz. Artıq barəsində kitab yazılacaq növbəti şəhidimiz də məlumdur. Saatlı şəhidi haqqında yazılacaq. Mən "Şəhidlər ölməz, Vətən bölünməz" layihəsi çərçivəsində yazılacaq kitabların materiallarının nəşr edilməsi üçün bir neçə qəzetə müraciət etmişdim. Onlar arasında Aydın müəllimdən ürəklisi tapılmadı.

Şəhidimizin hələ bundan sonrakı taleyi, yolu müəyyən olunmasa da, onunla bağlı belə bir kitab ərsəyə gətirildi. Bilirsiniz, qəhrəmanlar doğulmurlar, qəhrəmanlıq üçün bir an lazım olur, bu qəhrəmanlığı da X.Əkbərov kimi oğullar göstərib" - deyə N.Məmmədova bildirdi.

***İradə SARIYEVA***

**Eramızdan əvvəl I minillikdə Afrika qitəsinin şimal-şərq hissəsi, indiki MƏR, Somali, Həbəşistan... dövlətlərinin ərazisində Roma-Yunan imperiyasının hərbi-siyasi təcavüzü güclü olduğundan, yerli dövlət idarəetmə sistemindəki bu dövr "Roma-Yunan mərhələsi" hesab edilir.**

# Hay qəbilə-tayfa sürüsünün Afrika keçmişi...

**(6-cı məqalə)**

*"Öz keçmişini bilməyən xalq uşaq yaşında qalacaq"*

*(Qədim yunan filosofu Platon (Əflatun) e.ə.427-347, Sokratın şagirdi, Aristotelin müəllimi)*



Yaxın Şərq üzrə qədim dövr tarixçilərindən və şərqşünaslarından Y.S.Boqoslovskinin (1941-1990) 1968-ci ildə namizədlik dissertasiyası kimi yazdığı "Fironların, allahların və şəxsi adamların qulluqçuları" mövzusundakı, 1986-cı ildə isə "Qədim Misir sənətkarlığı" (Dar-əl-Mədinə arxeoloji materialları əsasında) doktorluq tədqiqatlarında, M.E.Matyenin (1899-1966) K.S.Lyapinova (1895-1942) ilə birgə yazdığı " Yunan-Roma və Bizans Misiri" (1939), B.A.Turayevin (1868-1920) "Qədim Şərqin tarixi" əsərlərində, eləcə də 1955-ci ildə SSRİ EA-nın nəşri olan "Ümumdünya tarixi" kitabında Misir dövlətinin tarixinə dair verilmiş məlumatlarda eramızdan əvvəl 1243-1219-cu illər ərzində firon II Ramzesin dövründə yunanların Nil çayının deltasına və hövzəsinə (cənubi Nilədək) amansız və fasiləsiz hücumlarının olduğu qeyd edilir. Bu hücumlar III Ramzesin (e.ə. 1185-1153-cü illər) hakimiyyəti zamanı da baş verib.

Qədim yunan mütəfəkkiri Homer "İlliada" poemasında Troya müharibəsində yunan ordusunun tərkibində muzdluların (Aralıq dənizi adalarında və Frakiyaya köçürülmüş əsirlərin, Afrikadan gəlmiş qəbilə-tayfa sürüsü nümayəndələrinin əsasında) döyüşdüyünü tərənnüm edir. Hay-daşnak müəllifləri özləri də israrla "29-cu hay çarı" Zarmayr Aykazuninin (e.ə. 1192-1180-ci illər) "Haykidilər sülaləsinin üzvü kimi" Troya müharibəsində iştirakını təsdiq edirlər.

Rus tarixçisi, M.V.Lomonosov adına MDU-nin "Qədim dünya tarixi" kafedrasının dosenti O.V.Tomaşeviçin (1956) "Qədim Misir" (2007) kitabında, eləcə də "Qədim Şərqin tarixi" (1999, 2002) məqalələrində Troya müharibəsinin qəbilə-tayfaların, xalqların böyük köçünə və geri qayıtmalarına səbəb olduğu da vurğulanır. Ona görə də sonrakı mərhələdə yunan ordusunun Afrikaya hərbi yürüşündə iştirak edən muzdlular məhz Afrikadan köçərək Yunan imperiyası ərazisində məskunlaşanlardan təşkil edildiyindən, Nil çayı boyunca həm də bələdçi kimi onlardan istifadə edilib, ona görə də itki verilməyib. Bu sırada hay qəbilə-tayfa sürüsü xüsusilə fərqlənib.

Digər mənbələrin məlumatına görə, Troya müharibəsində iştirak edən döyüşçülərin sırasında Frakiya yarımadasında yaşayan gəlmə axeylər (xaylar-haylar) Yunan ordusunun Afrika yürüşünün də iştirakçıları olub. Deməli, hər iki halda hay qəbilə-tayfa sürüsünün üzvləri Afrika mənşəli olduğundan, yerli relyef-iqlim şəraitinə alışdığından və həmin yerlərə bələd olduqlarından onlardan daha çox istifadə ediblər. Axeylərin tərkibində hayların (xayların) assimiliyasiyası uzun proses olduğundan bu bir neçə yüzilliyi əhatə edib (əsasən e.ə. 1 minillikdə). Şərqi Aralıq dənizi sahillərindən Balkan yarımadasına və Egey dənizi adalarına köç etmiş axey-xay-hay tayfa-qəbilə sürüsünün miqrasiyasına Yunan-Roma, Bizans-İran müharibələrinin təsiri böyük olub.

Suriya, Kipr, Fələstun ərazilərində aparılmış bir sıra beynəlxalq səviyyəli arxeoloji qazıntıların nəticələrinə görə, Aralıq dənizi hövzəsindəki quru hissələrdə tapılan əksər insan sümüklərinin gen daşıyıcıları Afrika mənşəli olub. ABŞ-ın paytaxtı Vaşinqton şəhərində Kapitoli Arxeologiya institutunun direktoru, C.Vaşinqton Universitetinin professoru Erik Klayn məhz bu məzmunlu mülahizələr irəli sürüb ("1177 BC: The Year Civilization Collapsed.") Eramızdan əvvəl II-I minilliklərdə Şərqi Afrika ərazilərindən və Nil çayı hövzəsindən yerli qəbilə-tayfa sürsünün Aralıq dənizinin şərq sahillərində (axeylərin, assuriyalıların, aramilərin (arameylərin)...yaşadıqları ərazilərə) materik hissəyə, Dəclə və Fərat çaylarının hövzəsinə, oradan Frakiya və Peloponnes yarımadaları, onlara qonşu olan adalara köç etməsi, məskunlaşması, yerli xalqlarla assimilyasiya olması barədə dünya və rus-sovet tarixçilərinin də (beynəlxalq arxeoloji tədqiqatların nəticələrinə və arxiv materiallarına əsaslanan) kifayət qədər dayanıqlı (elmi ictimaiyyət tərəfindən qəbul edilmiş) elmi-nəzəri mülahizələri-nəşrləri mövcuddur. Bu baxımdan rus alimi A.B.Safronovun "Troya müharibəsi: Misirdən baxış" (2019), "Şərqi Aralıq dənizinin e.ə. XIV-XII əsrlərinə dair tarixi oçerklər" (2018) əsərlərində Şərqi Afrika tayfa-qəbilə birliklərinin Yunan və Roma ərazilərinə köçürülməsində və Şərqi Aralıq dənizi hövzəsində bu tayfaların məskunlaşmasına, uzun miqrasiyasına xüsusilə kəskin təbiət hadisələri (quraqlıq, zələzələ, daşqınlar, qəbilələrarası müharibələr) ilə yanaşı, Yunan-Roma və Bizans-İran müharibələrinin (o cümlədən Troya savaşının) də təsiri böyük olub. Rusiya Elmlər Akademiyasının akademiki, "Misirşünaslıq elmi"nin yaradıcılarından biri B.A.Turayevin (1868-1920) "Qədim Şərqin tarixi" (1911) əsərində də Həbəşistan və Misir ərazilərindən xalqların (qəbilə-tayfa birliklərinin) Aralıq dənizi hövzələrinə köç etmələrinə səbəb olan amillərə elmi-nəzəri qiymət verilir.

Afrika qitəsinin şimal-şərq və şərq ərazilərindən e.ə. IV-II minilliklərdə qəbilə-tayfa miqrasiyasına səbəb olan təbii-ekoloji və ictimai-siyasi proseslərin qiymətləndirilməsi bir sıra elmi-nəzəri nəticələrə içıq salır. Bu nəticələr bölgənin sonrakı inkişaf dövründə dövlət quruculuğuna, eləcə də Aralıq dənizinin şərq sahillərinə güclü hərbi-siyasi və demoqrafik təsiri ilə müşayət olunur. Rus tarixçisi D.B.Prusakov " E.ə. IV-II minilliklərdə qədim Misir: dövlətin və cəmiyyətin təkamülündə sosial-ekoloji faktorlar" (2001) əsərində bu məsələləri elmi-nəzəri baxımdan geniş şərh edir. Erməni tarixçisi A.Teryan "Misirin erməni çarları" (2015) məqaləsində qədim Misir firionlarının 18-ci sülaləsinin mənşyində hay şəcərəsinin olduğunu bildirir. Deməli, Həbəşistan dağlıq yaylasından, Omo çayı hövzəsindən, Yuxarı Nil çayı axarlarından, Qırmızı dənizin qərb hissələrindən, Nubiya səhralarından... miqrasiya edən hay-qəbilə tayfa sürüsünün dayanacaq yerləri sırasında Misir dövləti, indiki Suriya və Livan əraziləri, eləcə də Yunanıstanın ada və yarımadaları olub. Tarixi gen bağlılığını unutmayan hay sürüsünün etno-morfogenezisinin qədim dövr mərhələsinə bir bağlılığın da ünvanını deyə bilərik: İrəvan şəhəri, X.Abovyan şossesi, 5. "Firion" restoranı və burada "Kleopatra" zalı (qədim Misirin təbii və milli elementlərinin naxışlarla təsviri).

Göründüyü kimi, hay qəbilə-tayfa sürüsünün Afrika qitəsindən miqrasiyasının tarixi-coğrafi şəraitinin və ictimai-siyasi nəticələrinin qiymətləndirilməsi üçün ciddi axtarışların aparılması daha zəruridir.

***Qismət YUNUSOĞLU***
***Bakı Dövlət Universitetinin müəllimi***

# Biabırçı tarix dərslikləri, iddialı müəllif və ya bir daha "Qarabağ tarixi" kitabı barədə...

**Bilirəm, bu yazıdan sonra sosial şəbəkələrdə üzərimə yeni-yeni hücumlar, basqılar olacaq. Kimi öz əxlaqına uyğun söyəcək, təhqir edəcək, aşağılamağa çalışacaq, kimi kənardan müşahidəçi qismində sadəcə seyr edəcək, kimi də müsbət rəy bildirməyə çalışacaq. Burada söhbət gənc nəslin tərbiyəsindən və onların dünyagörüşlərinin formalaşdırılmasından gedirsə, mən tarix dərsliklərində yol verilən qüsurlara göz yuma bilməzdim.**




Azərbaycan Respublikasının "Təhsil Haqqında" Qanununun 4.0.1. maddəsində deyilir: "Azərbaycan dövləti qarşısında öz məsuliyyətini dərk edən, xalqının milli ənənələrinə və demokratiya prinsiplərinə, insan hüquqları və azadlıqlarına hörmət edən, vətənpərvərlik və azərbaycançılıq ideyalarına sadiq olan, müstəqil və yaradıcı düşünən vətəndaş və şəxsiyyət yetişdirmək". Gənclərimizin şəxsiyyət kimi yetişdirilməsi həm də bizim vətəndaşlıq borcumuzdur. Mənə elə gəlir ki, ilk növbədə övladlarımıza dilini və tarixini mükəmməl öyrətmək vacibdir. Mükəmməl deyəndə əsasən təhsilin keyfiyyəti nəzərdə tutulur.

"Təhsil Haqqında" Qanun eyni zamanda təhsilin keyfiyyət səviyyəsinin yüksəldilməsini tələb edir (Maddə 9). Burada əsasən təhsil proqramları, abituriyentlərin hazırlıq səviyyəsi, maddi-texniki baza, infrastruktur, informasiya resursları, təhsilverənlərin peşəkarlığı və elmi-pedaqoji səviyyəsi, mütərəqqi tədris texnologiyaları və s. nəzərdə tutulur. Belə ki, dərsliklərin çapında da müəllifdən xüsusi peşəkarlıq və yüksək elmi-pedaqoji səviyyə tələb olunur.

Mən təhsil işçisi deyiləm, lakin bir vətəndaş kimi həyatımızda bütün baş verənlərə, eləcə də təhsillə bağlı münasibət bildirmək hüququm var. Biz hansısa bir sahəni nə qədər çox müzakirəyə çıxarsaq, o sahədə o qədər də çox şəffaflığa nail ola bilərik. Mədəni irsin qorunması və tədqiqi ilə məşğul olan bir adam kimi tarix kitabları diqqətimi daha çox çəkir. Mənim düşüncəmə görə, tarix fənni övladlarımıza ibtidai siniflərdən öyrədilməlidir. Tarixi ixtisasından asılı olmayaraq hər kəs mükəmməl bilməlidir. Mükəmməl və keyfiyyətli dərs öyrənmək üçün də keyfiyyətli dərsliklər yazılmalıdır. Təəssüf ki, tarix dərsliklərinin hazırlanmasında kifayət qədər nöqsanlarımız var.

Bu yaxınlarda ilk tanış olduğum 7-ci sinif "Azərbaycan tarixi" dərsliyi oldu. Burada mən poliolit dövründən ta XXİ yüzilliyədək öz varlığını yaşadan Qarabağın necə təsvir olduğuna baxmaq istədim, amma çox təəssüf ki, Qarabağ haqqında məlumata rast gəlmədim. Kitabın müəllifləri Mahmudlu Y., Ağayev S., Xubyarov B., Əlişova H., Hüseynova L., Bəhrəmova S.

Yalnız kitabın 82-ci səhifəsinin sonuncu bəndində cəmi bir dəfə Qarabağın adı çəkilir: "...Özünü Qarabağda padşah elan edən Qazan xan dərhal tədbirlər görməyə başladı...".







Mən bir vətəndaş olaraq Ölkəmiz, Dövlətimiz, Xalqımız üçün çox həssas olan və istər tarixi, istər mədəni, istərsə də ticari baxımdan zənginliyi ilə fərqlənən Qarabağın 7-ci sinif Azərbaycan tarixi dərsliyində yer almamasına heç cür bəraət qazandıra bilmirəm. Güman edirəm ki, bundan Yaqub müəllimin də xəbəri olmayıb. Yoxsa o buna yol verməzdi.

Qarabağ haqqında məlumatların dərsliklərdə necə yerləşdirilməsi marağı məni 8-ci sinif tarix kitablarını vərəqləməyə vadar etdi. Mən "Qarabağ tarixi" kitabına rast gəldim. Belə bir adda kitabın mövcudluğu məndə təəccüb doğurdu. Çünki Qarabağ Azərbaycandan kənarda başqa bir ölkə deyil, Qarabağ Azərbaycanın ayrılmaz tərkib hissəsi, onun mövcud regionlarından biridir. Qarabağ tarixi Azərbaycan tarixindən kənarda mövcud ola bilməz. Qarabağın tarixi Azərbaycan tarixinin tərkibində özünə yer almalıdır. Əgər biz doğrudan da Azərbaycanın bölgələrinin tarixlərini ayrı-ayrı dərsliklərdə təsvir ediriksə, o zaman orta məktəblər üçün Bakı, Gəncə, Şirvan, Naxçıvan tarixləri niyə yoxdur?

Burada düşmən barmağı hiss olunmur ki? Biz özümüz öz əlimizlə Qarabağ tarixini Azərbaycan tarixindən ayırıb ayrı bir fənn kimi tədris edirik. Biz bu fəaliyyətimizlə ermənilərə dəstək olmuruq ki? Biz öz əlimizlə Azərbaycanı bölmürük ki? Bu dərsliklər hazırlanarkən, dərsliyin uşaqların səviyyəsinə (yaşına) uyğun olub-olmaması barədə elmi araşdırmalar aparılıbmı? - Deyərdim ki, aparılmayıb. Əgər aparılsaydı, dərsliklərdə bu cür biabırçılıqlara yol verilməzdi.

2014-cü ildə çap olunan "Qarabağ tarixi" adlı bu dərslikdə ciddi qüsurlara yol verilib. Kitabın müəllifləri Qasım Əhəd oğlu Hacıyev, Əyyub Şəfahət oğlu Əbdüləzimov hər ikisi professordur.

Kitabın 9 cümlədən ibarət olan giriş hissəsində 5 cümlə "Qarabağ" sözünün mənşəyinə həsr edilib. (?) "Giriş"in nə məqsədlə yazıldığını bəlkə heç müəlliflərin özləri də izah edə bilməzlər. Amma orada önəmli iki cümlə var: "Azərbaycanın dövlət müstəqilliyinin bərpasından sonra Qarabağ tarixinin tədqiqinə xüsusi diqqət yetirilir. Vaxtilə nəinki Qarabağ regionunun, hətta bütövlükdə Azərbaycanın tarixi səthi öyrədilirdi. Həmin dövrdən çox-çox fərqli olaraq, bu gün müstəqil dövlətimizin təhsil siyasətində Qarabağ tarixinin gənc nəslə öyrədilməsi prioritet təşkil edir".

Bir zamanlar "Qarabağ regionunun, hətta bütövlükdə Azərbaycanın tarixinin səthi" öyrədilməsini dilə gətirən müəlliflər məqalələri bu həcmdə yerləşdiriblər:

1. Səhifə-18. Qarabağ regionu türk etnoslarının qədim yaşayış məskənidir (1,5 vərəq)
2. Səhifə-20 Qarabağ regionu yazılı mənbələrdə (1 vərəq)
3. Səhifə-21 Qarabağ regionu erkən orta əsrlərdə (1 vərəq)
4. Səhifə-23 Azərbaycanın Qarabağ regionu 9-14 - cü yüzilliklərdə (2,5 vərəq)
5. Səhifə-27 Qarabağ Azərbaycan Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin tərkibində (0,5 vərəq)
6. Səhifə-30 Səfəvilər dövründə Qarabağda siyasi və sosial-iqtisadi vəziyyət (1 vərəq)
7. Səhifə-33 Qarabağ regionu XVIII əsrin I yarısında (1 vərəq) və s.

Mövzuların həcmindən göründüyü kimi, burada dərsliyin keyfiyyəti barədə danışmağa dəyməz. AR "Təhsil Haqqında" Qanununun 9.1. maddəsində deyilir:

*(Ardı 13-cü səh.)*

**Xalq arasında " Semaşko" kimi tanınan 1 saylı Şəhər Klinik Xəstəxanasını çoxları kasıb-kusubun ümid yeri adlandırır. Bu xəstəxanada müalicə özəl klinikalara nisbətən ucuzdur. Bu səbəbdən də özəl xəstəxanalara gedə bilməyənlər şəfa tapmaq üçün " Semaşko"ya üz tuturlar.**

# "Semaşko" xəstəxanasında böyük maliyyə qalmaqalının əsl mahiyyəti...




***"Semaşko"nun baş həkimi Ədalət Dadaşov:** "Söz yox ki, xəstəxanada nöqsanlar, çatışmazlıqlar var, ancaq mənim kimlərdənsə o qədər rüşvət almağım barədə deyilənlər həqiqət deyil"*

***Əmirəli Yusifov:** "İşdən çıxarılmamışam, sadəcə, rəhbərlik etdiyim şöbə başqa bir şöbə ilə birləşdirilib, rəhbərliyə də travmatologiya şöbəsinin rəhbəri gətirilib"*

Adıçəkilən xəstəxananın baş həkimi Ədalət Dadaşovun qanunsuz əməli ilə bağlı bu günlərdə bir sıra elektron xəbər portallarında məlumat yayıldı.

Qeyd olunur ki, baş həkim xəstəxanada bütün şöbələrdən qanunsuz olaraq pul alır, hətta bir neçə həkimi belə qanunsuz yerə işdən çıxarıb. Bildirilir ki, baş həkim hər ay hər şöbədən 3000 manat alır, hər həkim ayda 300 manat baş həkimə görüm-baxım edir.

İddia olunur ki, son 1-2 il ərzində əmək müqaviləsinin bir il uzadılması üçün 3 min manat haqq verməkdən imtina edən ixtisaslı, peşəkar həkimlərdən Travmatologiya şöbəsinin müdiri Alim Mirzəyev, Cərrahiyyə şöbəsinin reanimasiya müdiri Vaqif Rəhimov, Anestiziologiya şöbəsinin müdiri Fətəli Fətəlizadə, Neyrotravmatologiya şöbəsinin müdiri Əmirəli Yusifov, nevropatoloq Səlim həkimin əmək müqavilələrinə səbəbsiz yerə xitam verilib.

Deyilənlərə aydınlıq gətirmək üçün xəstəxanaya zəng vurduq. İlk öncə işdən çıxarıldığı iddia olunan həkimlərlə əlaqə saxladıq. Neyrotravmatologiya şöbəsinin müdiri Əmirəli Yusifov bizimlə söhbətində qeyd etdi ki, işdən çıxarılmayıb və hazırda xəstəxanadadır: "Mən işimdən çıxarılmamışam. Sadəcə olaraq, rəhbərlik etdiyim şöbə başqa bir şöbə ilə birləşdirilib, rəhbərliyə də travmatologiya şöbəsinin rəhbəri gətirilib. Burda nə var ki? Xəstəxanada islahatlar aparılıb. İnsan bəyəm ömrü boyu vəzifədə qalmalıdır? "Semaşko" xəstəxanası həmişə kasıb camaatın arxasında olub. Biz də olmayandan sonra görün vəziyyət necə olacaq, bu camaat hara gedəcək? Bu qədər böhtanı kim yazıb, bilmirəm, amma düz yazmayıb. Mən öz adımdan deyirəm, kimin ehtiyacı var, gəlsin, mən onu bir qəpiksiz müayinə edim. İşdən çıxarıldığı iddia olunan həkimlərin hər biri iş başındadır və xəstələrini müalicə edirlər".

Xəstəxananın baş həkimi Ədalət Dadaşov "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, deyilənlərin hər biri iftira və böhtandan başqa bir şey deyil: "Xəstəxananı, məni tənqid etmək olar. Amma bu qədər iyrəncliyə yol vermək olmaz. Bizim xəstəxanada söz yox ki, nöqsanlar, çatışmazlıqlar var. Amma mənim kimlərdənsə o qədər rüşvət almağım barədə deyilənlər həqiqət deyil və mən belə söhbətlərə əhəmiyyət vermirəm. Kimsə ağa qara deyirsə, mən durub sübut etməliyəm ki, ağ ağdır?".

**Baş həkim onu da vurğuladı ki, rəhbərlik etdiyi tibb müəssisəsi hər zaman əhalinin aztəminatlı təbəqəsinə dəstək olub: "Bizdə digər xəstəxanalar kimi müayinələr pullu deyil. UZİ, EKQ, rentgen müayinəsi, tomoqrafiya və digər prosedurlar, eyni zamanda, müalicə pulsuzdur. Yəqin kimsə məni ləkələmək üçün belə bir yolu seçib. Mən deyildiyi kimi, hər şöbədən, hər həkimdən pul alan olsaydım, xəstə müayinəsi də pullu olardı".**

***Günel CƏLİLOVA***

---

*(Əvvəli 12-ci səh.)*

- "Təhsilin keyfiyyət səviyyəsi ölkədə qəbul olunan dövlət təhsil standartları əsasında beynəlxalq və ümumavropa təhsil sisteminin prinsiplərinə uyğunlaşdırılaraq təhsil pillələri üzrə müvafiq keyfiyyət göstəriciləri sisteminə (təhsil proqramları, abituriyentlərin hazırlıq səviyyəsi, maddi-texniki baza, infrastruktur, informasiya resursları, təhsilverənlərin peşəkarlığı və elmi-pedaqoji səviyyəsi, mütərəqqi tədris texnologiyaları və s.) uyğun olaraq müəyyən edilir".

Bütün məsuliyyətimlə deyə bilərəm ki, 8-ci sinif "Qarabağ tarixi" dərsliyi çap edilərkən Təhsil Haqqında Qanunun 9.1. maddəsi pozulub.

Hörmətli professorlarımız "yeniləşdirdikləri" dərsliyin 20-ci səhifəsində yol verdikləri bu xətanı "görməyiblər".

**Qarabağ regionu yazılı mənbələrdə**

Kitabın 17-ci səhifəsində yerləşdirilən bu şəkillərin ümumiyyətlə bu dərsliyə aidiyyəti yoxdur. Belə ki, bu abidələr haqqında dərslikdə heç bir məlumat verilmir. Birinci şəkil elmi ədəbiyyatda "Xotavəng". "Xudavəng","Dədəvəng" kimi qeyd olunur. İnşa tarixi VI-VII əsrlərə aid edilir. Abidə Kəlbəcərdən şərqdə, Ağdərə-Kəlbəcər magistral yolunun qırağındakı Bağlıpəyə kəndindən aşağı, yəni Ağdərə tərəfdə, Kəlbəcər rayonunun 29 kilometrliyində yerləşən qədim alban məbəd kompleksidir. VI-VII əsrlərdə Alban knyazı tərəfindən tikilib. XV əsrlərdə bu abidə Alban knyazlığının dini məbədi olub. Sonralar məbəd bir neçə dəfə təmir edilib, əlavələr olunub və nəhayət, Alban hökmdarı Həsən Cəlal tərəfindən əsaslı bərpa edilib.

İkinci abidə - Ağoğlan məbədi Laçın rayonu ərazisində, Həkəri çayının Minkənd qolu sahilində Kosalar kəndinin yaxınlığında yerləşir. Ağoğlan məbədi IV - IX əsrlərə aid alban dövrü abidəsidir.

Abidə müxtəlif dövrlərdə uçqun və dağıntılara məruz qaldığından, IX əsrdə yenidən inşa edilərək forma etibarı ilə monastır memarlığı tipinə uyğunlaşdırılıb. Bu abidə təmir edilərkən ilk bünövrələri olduğu kimi saxlanıb, köhnə divarlar üzərində yeni divarlar tikilib. Bərpadan sonra Ağoğlan qəsri Azərbaycan tarixinin alban dövrü memarlığının ən möhtəşəm abidələrindən birinə çevrilib. Bu cür möhtəşəm abidələr barədə dərslikdə məlumat verilməməsi məyusluq doğurur.

Kitabın 12-ci səhifəsində "Azərbaycan Respublikasının Qarabağ regionunun maddi-mədəniyyət abidələri" adlı başlıq altında gedən yazılar oxucuda anlaşılmazlıq yaradır, tədris üçün yararsızdır. Belə ki, abidələrin kateqoriyaları, növləri, sayı haqqında məlumat verilmir.

İşğal altındakı 13 dünya əhəmiyyətli abidənin adları sadalanmır, onların Azərbaycanın tarixi və mədəniyyətində rolu izah edilmir.

Ermənistanın hərbi təcavüzü nəticəsində Azərbaycanın mədəni irsinin məruz qaldığı itki və tələfatların sırasında sənəd abidələri, memarlıq abidələri, tarixi abidələr, arxeoloji abidələr, incəsənət abidələri, muzeylər, kitablar, əlyazmalar, qoruqlar barədə heç nə danışılmır. Bunun əvəzində kitabda şagirdlər üçün mücərrəd mövzular, izahsız şəkillər verilir.

**"Bu tarixi abidələr Qarabağ regionunun möhtəşəmlik simvoludur"**

Bu, dərsliyin 42-ci səhifəsidir. Şəklin altındakı yazını oxuyan şagird üçün maraqlıdır bilsin, bu abidələr haradadır, nə vaxt inşa edilib, Azərbaycan üçün əhəmiyyəti nədən ibarətdir? Bu tapmacanın cavabını şagird necə tapsın? Uşaq haradan bilsin ki, bu abidələr Ağdam cümə məscidi, Ağdamın Qarağacı qəbiristanlığı, Əsgəran qalası, Şuşanın Cıdır meydanından Qarqarçayın görüntüsüdür. Amma bilsələr maraqlı olar, elə deyilmi?

Mən bu qüsurları kitab müəllifinin diqqətinə çatdıranda o qədər kəskin reaksiya verdi ki, sanki bomba partlamışdı. İndi mən deyirəm, hörmətli Qasım müəllim, bu saydıqlarım sizin hazırladığınız dərslikdəki nöqsanların hamısı deyil. Əziz dostum, tək bir şeyi anlamanı istərəm - nöqsanları üzə demək düşmənçilik deyil. Düşmənçilik, nöqsanları görüb gözünün içinə baxa-baxa susmaqdır.

"Bakı xəbər" qəzetinə müsahibənizdə deyirsiniz "...ortaya çox yüksək səviyyəli "Qarabağ tarixi" dərsliyi çıxarmışıq." Mən də Sizə deyirəm ki, bu dərslik qüsurludur, şikəst doğulub. Buraxın dərslik məsələlərini pedoqoqların öhdəsinə.

Siz məni çox yaxşı tanıyırsınız, savadıma da bələdsiniz, biz bir çox tədbirlərdə, beynəlxalq konfraslarda birlikdə iştirak etmişik. Doğrudanmı bu sözləri deyəndə xəcalət çəkmədiniz? "O, "Qarabağ tarixi" dərsliyini özbaşına tənqid etmir, onu kimsə öyrədib, özü də bilirəm kim öyrədib"... Məsləhət görərdim ki, cəsarət nümayiş etdirib o "kimsə"nin adını deyəsiniz.

Tənqidə bu qədər dözümsüzlük bu yaşda Sizə yaraşmaz. Xahiş edirəm, bacarmadığınız yolun yolçusu olmayın. Qasım müəllim, yalan danışmaq səhvləri ört-basdır etmir. Siz deyirsiniz ki, "Bəzi qeyri-hökumət təşkilatlarının təmsilçiləri, eləcə də radikal müxalifət istəmir Qarabağ tarixi öyrənilsin. Çünki bu adamlar erməni dəyirmanına su tökənlərdir". Yazdığınız dərslik kimi danışığınız da mücərrəddir. Həm də qorxaqsınız, ad çəkə bilmirsiniz.

Siz Akademiyaya məndən çox öncə gəlmisiniz. Mən ora 2016-cı ildə gəldim. Təşəkkür edirəm AMEA rəhbərliyinə ki, bu müddət ərzində mənim Ermənistan əleyhinə iki kitabımı 4 xarici dildə çap edib yayıb. Bundan başqa, mən Ermənistan əleyhinə 10 kitab, 200-dən çox məqalə müəllifiyəm. 2011-ci ildə Strasburqda Ermənistana qarşı məhkəmə iddiası qaldırmışam. Maraqlansanız, bunları online, yəni internetdən əldə edə bilərsiniz.

Verdiyiniz müsahibədə daha sonra deyirsiniz: - "Faiq müəllim deyir ki, guya dərsliyin 20-ci səhifəsində "Qarabağ regionu yazıb mənbələrdə" yazılıb. O, kitabın elektron variantını götürüb və orada da hərf səhvi olub. Kitabdan isə xəbəri yoxdur. Həm də onun qeyd etdiyi məsələ 20-ci səhifədə deyil, 14-cü səhifədədir. Mən bu kimi fikirlərə əhəmiyyət vermirəm.

Qasım müəllim, yalan danışırsınız. Kitab elektron variant üzərindən çapa gedir. Elektron varianta da oxucunun düzəliş etməsi mümkünsüzdür. Yəni elektron variantda necə gedibsə, çapda da o cür düşür. Xətrinizə dəyməsin, boynunuza alın ki, Sizin o kitabdan xəbəriniz yoxdur. Siz necə müəllifsiniz ki, 14-cü səhifə ilə 20-ci səhifənin yerini səhv salırsınız? Siz 14-cü səhifədə bu abidələr haqqında məlumat verirsiniz:

Şortəpə - Azərbaycan Respublikasının Bərdə şəhərinin 5-6 km-də Şatırlı kəndi yaxınlığında qədim şəhər yeridir.

Kültəpə - Azərbaycan Respublikasının Füzuli rayonunun Bala Bəhmənli kəndi yaxınlığında çoxtəbəqəli qədim yaşayış yeridir.

Uzuntəpə - Azərbaycan Respublikasının Füzuli şəhərinin 8- 10 km şimal-şərqində Köndələnçayın sağ sahilində ilk tunc dövrünə (e.ə. 3-cü minillik) aid abidədir.

Xantəpə - Azərbaycan Respublikasının Füzuli şəhərinin cənub-şərqində e.ə. 5-ci-2-ci minilliklərə aid çoxtəbəqəli yaşayış yeridir.

Mənim münasibət bildirdiyim dərslik Sizin bu kitabdır-

Qasım Hacıyev
Əyyub Əbdüləzimov
QARABAĞ TARİXİ
Ümumtəhsil məktəblərinin 8-ci sinfi üçün fakültativ kursun tədris vəsaiti
Azərbaycan Respublikası Təhsil Nazirliyinin 19.02.2014-cü il tarixli, 206 nömrəli əmri ilə təsdiq olunmuşdur.

***Faiq İSMAYILOV***

# Azərbaycanda gənc ailə nikahları harada kəsilir? - Rusiyada maraqlı təcrübədən istifadə etməyə başlayıblar...

**Rusiyada yeni evlənən cütlüklər nikah mərasimlərini VVAQ şöbələri ilə yanaşı, Rusiyanın Müasir Tarix Muzeyində də həyata keçirə bilərlər. XVIII əsrin memarlıq abidəsi olan muzeyin möhtəşəm salonlarında nikah mərasimləri keçirilir. Moskva hökumətinin "Yeni evlilik qeydiyyatı meydanı" layihəsi çərçivəsində keçirilən ilk təntənəli mərasim məşhur Moskva İngilis Klubunun keçmiş kitabxanasında baş tutub.**

***Aytəkin Kamranqızı:** ”Tarixi təbliğ etmək baxımından nikah mərasimlərinin tarixi məkanlarda, milli muzeylərdə keçirilməsi təqdirəlayiq hal olar”*



Onu da qeyd edək ki, baş direktor İrina Velikanova xarici mərbuata açıqlamasında qeyd edib ki, yeni bir ailənin qurulması Rusiyanın böyük milli tarixinin bir hissəsidir: "Bir ailə qurmağa qərar verən cütlər, ölkəmizin müasir həyatını əks etdirən bir muzeydə, açıq şəkildə şəxsi tarixlərini - bu günlərini və gələcəklərini Rusiyanın tarixi ilə əlaqələndirirlər. Ümid edirik ki, bu cür mərasimlər yaxşı bir ənənəyə çevriləcək və mütəmadi olaraq muzeyimizin salonlarında keçiriləcək".

Maraqlıdır, analoji təcrübə ölkəmizdə də tətbiq oluna bilərmi?

Qeyd edək ki, bizim ölkəmizdə nikah mərasimləri VVAQ şöbələrində, restoran və ya şadlıq evlərində qeyd edilir. Nikah mərasimi əsasən ölkəmizdə çal-çağır çərçivəsində həyata keçirilir. Şadlıq evlərində iştirak edən müğənnilərin xeyir-duası ilə gənclərin nikah mərasimi baş tutur.

Onu da bildirək ki, son vaxtlar nikah mərasimlərinin Heydər Əliyev Mərkəzində qeyd edilməsi ənənəsi də yaranır.

Məlumat üçün bildirək ki, nikah mərasimlərinin tarixi məkanlarda qeyd olunması ənənəsi tək Rusiyada deyil, bir sıra ölkələrdə də tətbiq olunur. Belə ki, qonşu Türkiyədə də yeni evlənən cütlüklərin nikah mərasimləri tarixi məkanlarda baş tutur.

Nikah mərasimlərinin ölkəmizin tarixi məkanlarında keçirilməsinin vacibliyi barəsində danışan sosioloq Aytəkin Kamranqızı bizimlə söhbətində qeyd etdi ki, nikahın tarixi məkanlarda qeyd olunması əlamətdar hadisədir: "Xatırladım ki, Sovet dönəmində ailə quran şəxslər tarixi abidələri ziyarət edər, onların yanında şəkil çəkdirərdilər. Ancaq indi vəziyyət dəyişib. Belə ki, ailə quran gənclərin bir qismi nikahdan öncə Şəhidlər Xiyabanını, İlhamla Fərizənin məzarını ziyarət edirlər. Belə bir ənənənin olması yaxşıdır. Tarixi məkanlarda kəbin kəsmə və ya rəsmi nikah mərasimlərinin baş verməsi isə təqdirəlayiq haldır. Ancaq o şərtlə ki, həmin mövcud strukturlara, eksponatlara zərər vurulmasın və kommersiya mənbəyinə çevrilməsin. Çox zaman bu cür məsələlərdə möhtəkirlik edib, daha irəli gedərək, qazanc xarakterli tədbirlər keçirir və belə məkanlara zərərvurma hallarına rast gəlinir. Ümumilikdə, nikahın tarixi məkanlarda kəsilməsi, tarixi abidələrin ziyarət olunması yaxşı haldır".

**Həmsöhbətimiz onu da vurğuladı ki, tarixi təbliğ etmək baxımından nikah mərasimlərinin tarixi məkanlarda, milli muzeylərdə keçirilməsi təqdirəlayiq hal olar: "Belə bir ənənə ölkəmizdə tətbiq olunarsa, gənclərimiz tariximizə bələd olarlar. Tariximizə hörmət, onu təbliğ etmək və gələcək nəsillərə aşılamaq baxımından nikah mərasimlərinin tarixi məkanlarda baş tutması müsbət hal olar".**

*Günel CƏLİLOVA*

# Azərbaycanda yeni bal brendi - "9 iqlim"...

**Azərbaycanda arıçılığın inkişafı üçün əlverişli imkanlar var. Ölkəmizin gözəl iqlim şəraiti, zəngin bitki aləmi arıçılığın genişləndirilməsinə böyük təbii imkanlar yaradır. Arıçılığın inkişafı üçün yaradılan şərait nəticəsində Azərbaycan balı dünyanın əksər ölkəsində tanınır.**

*”Hər bir regionun balı, eyni zamanda, digər kənd təsərrüfatı məhsulları həmin bölgənin xarakterik xüsusiyyətinə görə marka kimi qəbul olunmalıdır”*

***Nicat Nəsirli:** ”Arıçılıq sahəsində mövcud olan problemlərdən biri də balın markalanmaması və qablaşdırılmamasıdır”*



Məlumdur ki, Azərbaycanın bir sıra bal sortları var. Bununla yanaşı, Azərbaycanda yeni bal brendi yaradılır. Yeni bal brendinin adı "9 iqlim"dir. Azərbaycan Arıçılar Assosiasiyasının sədri Bədrəddin Həsrətov media nümayəndələrinə açıqlamasında bildirib ki, bu bal ilə artıq xaricdə maraqlanırlar: "Bildiyiniz kimi, Azərbaycanda bir sıra bal sortları var. Ancaq hazırda ölkədə yeni bal brendi yaranır, adı isə "9 iqlim"dir. Həmin balın tərkibi 9 regiondan əldə edilən və 9 müxtəlif sortda olan balların birləşməsi olacaq. Yeni brendlə artıq Almaniya maraqlanır və bununla bağlı iki dəfə görüş keçirilib".

Ekspertlərin fikrincə, yeni bal brendinin yaranması ölkə iqtisadiyyatına müsbət təsir edəcək.

Aqrar sahə üzrə ekspert Nicat Nəsirli "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, bir sıra kənd təsərrüfatı məhsulları kimi, Azərbaycan istehsalı olan bal xarici bazara tam şəkildə çıxa bilmir: "Bunun bir sıra səbəbləri var. Bunun bir səbəbi yerli məhsullarımızın xaricdə aqromarketinq baxımından brendləşməməsidir. Məlumat üçün bildirim ki, hər bir məhsulun öz adı, markası olmalıdır. Məhsul üçün təyin olunan standart dövlət tərəfindən müəyyən olunmalıdır. Arıçılıq sahəsində mövcud olan problemlərdən biri də balın markalanmaması və qablaşdırılmamasıdır. Nəzərə almaq lazımdır ki, qablaşdırmanın özü belə standartdır. Xarici ölkələr qablaşdırılmamış məhsulu qəbul etmirlər. Çünki bal maye halında olan məhsuldur. Bununla yanaşı, qab üçün xüsusi tələblər müəyyən olunub. Dünya standartına əsasən, duru məhsullar üçün qablaşdırma ya taxta, ya da plastikdən ibarət olmalıdır".

Həmsöhbətimiz onu da vurğuladı ki, hər bir regionun balı, eyni zamanda, digər kənd təsərrüfatı məhsulları həmin bölgənin xarakterik xüsusiyyətinə görə marka kimi qəbul olunmalıdır: "Məlumdur ki, Azərbaycanın bir sıra bal sortları var ki, məşhurdur. Məsələn, Arıçılar Assosiasiyası Kəlbəcər, Daşkəsən balına öz adına uyğun sertifikat verərək, brendləşdirib xarici bazara çıxara bilər. Bölgələr öz məhsullarının tanınması baxımından bu işdə fəal olmalıdırlar".

*Günel CƏLİLOVA*

# Binə qəsəbəsində zibil dəhşəti...

**Bakıətrafı kənd və qəsəbələrin əksəriyyətinin payız-qış aylarında bataqlığa çevrilən yol problemi ilə yanaşı, daha bir dərdi var. Problem ondan ibarətdir ki, bəzi qəsəbələrdə zibil yeşikləri yoxdur. Bakı və ətraf qəsəbələrin inkişafına dair dövlət proqramları sayəsində bu qəsəbə və kəndlərin çoxunda su, qaz, elektrik xətləri yenilənib.**



***Rüfət Mirzəyev:** "Bu boyda qəsəbədə zibil qutusu yoxdur, kustar formada dəmir vedrələrdən zibil qutusu kimi istifadə edirik"*

***İlqar Hüseynli:** "Binədə zibil qutusu ilə bağlı problem qəsəbə bələdiyyəsinin maliyyə vəsaitinin azlığı ilə bağlı ola bilər"*

Ancaq məişət tullantılarını atmaq üçün münasib yerlər və tullantıların vaxtında daşınması hələ də ciddi problem olaraq qalır. Belə problemlərin mövcud olduğu qəsəbələrdən biri də Xəzər rayonunun Binə qəsəbəsidir.

Sözügedən qəsəbədə məişət tullantılarının daşınması ilə bağlı çox böyük problemlər var. Zibillər vaxtlı-vaxtında yığılmır. Bəzi qəsəbə sakinləri zibili torpağa basdırırlar. Problem ondadır ki, Binə qəsəbəsində zibil atmaq üçün zibil qutusu yoxdur. İstər bina evlərinin, istərsə də həyət evlərinin yaxınlığında zibil qutuları yoxdur. Bu barədə qəzetimizə şikayət edən Binə qəsəbəsi sakini Rüfət Mirzəyevin sözlərinə görə, sakinlər zibili blokun qarşısına yığırlar: "Həftənin ikinci günü bələdiyyə işçiləri zibili yığırlar. Bu müddət ərzində üfunət iyindən həyətə, bloka yaxın durmaq olmur. Gözləyirik haçan ikinci gün olar, gəlib zibili yığarlar. Bu boyda qəsəbədə zibil qutusu yoxdur, kustar formada dəmir vedrələrdən zibil qutusu kimi istifadə edirik. Eləsi var ki, zibili kisəyə yığır və qoyur bir kənara. Bu zaman sahibsiz itlər kisəni eşib zibili ətrafa yayırlar. Hansı ki, ağzı qapalı zibil qutuları olsa, nə üfunət olar, nə də digər problemlər. Bir sıra hallarda işə gedəndə evdəki zibilləri maşına qoyub harada qabağıma zibil yeşiyi çıxırsa, ora atıram. Bu zaman gərək mütləq qəsəbədən kənara çıxasan. Bələdiyyə işçiləri həftədə bir dəfə gəlib həyətdən zibili götürürlər. Bununla iş düzələr? Həyət evləri olanların bəziləri çarəsizlikdən zibili basdırırlar. Eləsi də var ki, qapının ağzına bir çəllək qoyub. Zibil yığıldıqca atır çəlləyə. Qışda bu o qədər də hiss olunmur. Hava soyuq olduğundan, üfunətin iyi o qədər də yayılmır. Əsl vay-müsibət yayda olur. Yay aylarında zibilin iyindən qapını açmaq blə olmur. O dərəcədə üfunət iyi ətrafa yayılır".

Sözügedən məsələ ilə əlaqədar gün ərzində bir neçə dəfə Xəzər rayonu Binə qəsəbəsinin bələdiyyəsi ilə əlaqə saxlasaq da, telefonun dəstəyini qaldıran olmadı.

Məsələyə münasibət bildirən ekspert İlqar Hüseynlinin sözlərinə görə, Binə kimi böyük qəsəbədə zibil qutularının olmaması təəssüf doğurur. Onun fikrincə, bu, bir sıra problemlərdən qaynaqlanır: "Əslində, bütün kənd və qəsəbələr çeşidli zibil qutuları ilə təmin edilməlidirlər. Bu nə deməkdir? Bu o deməkdir ki, çörək üçün ayrı, digərləri üçün də ayrıca qutular olmalıdır. Təəssüflər olsun ki, bizdə bu yoxdur. Ümumi zibil qutularından istifadə olunur. Binədə zibil qutusu ilə bağlı problem qəsəbə bələdiyyəsinin maliyyə vəsaitinin azlığı ilə bağlı ola bilər. Çünki bələdiyyələrin zibildaşıyan maşınlarla bağlı problemləri var. Əksər bələdiyyələrdə əraziyə bir maşın xidmət edir. Digər problem odur ki, bələdiyyələrin zibil qutusu almağa yetərincə maliyyə vəsaiti yoxdur.

**Bütün bunlara baxmayaraq, ərazi mənzil idarəetmə orqanları var. Onlar da bu işə yardım etməlidirlər. Bəzən ikili idarəetmə problemlər yaradır. Ona görə də bununla bağlı bütün xidmətlər bələdiyyələrə həvalə edilməlidir. Belə olarsa, o zaman bəlkə bu problemlər öz həllini tapar".**

*Vidadi ORDAHALLI*

# Uşaqlarda pəncə yerişi defekti kütləviləşir

**Son illər uşaqlar arasında müxtəlif patoloji xəstəliklərin yaranmasının şahidi oluruq. Bu xəstəliklər zamanında müalicə edilmədikdə özünü daha ağır şəkildə büruzə verməyə başlayır. Yeni nəsil uşaqlar arasında geniş yayılan problemlərdən biri uşaqların ayaq barmaqları üstündə gəzməsidir ki, buna biz sıx-sıx rast gəlirik.**



***Sevinc Xasayeva:** "Uşaqlar arasında ayaq barmaqları ucunda yerimə halları geniş yayılıb və bu bir patologiyadır"*

*"Bunun digər səbəbi də uşaqların vaxtından tez "gəzdirici"yə qoyulmasıdır"*

Bu daha çox yeni yeriməyə başlayan uşaqlar arasında geniş yayılıb. Artıq böyük bir təhlükə kimi qarşımıza çıxan bu problemin nədən qaynaqlandığı müxtəlif suallar yaradır.

Uşaqlar arasında pəncə, barmaq uclarında gəzmələrin artmasının səbəbini həkimlər müxtəlif cür izah edirlər. Həkim-pediatrların böyük əksəriyyəti qeyd edirlər ki, axır illər uşaqlarda müşahidə edilən bu təhlükəli vəziyyətlə bağlı tez-tez valideynlər tərəfindən müraciət alırlar. Həkim-pediatrların bildirdiyinə görə, bu təhlükəli məsələ yalnız Azərbaycanda deyil, bütün dünyada mövcuddur və mütəxəssislər bu halın aradan qaldırılması, eyni zamanda, vərdiş halına keçməməsi üçün o cür uşaqların zamanında müalicə almasını tövsiyə edirlər.

Ekspertlərin bildirdiyinə görə, dünya üzrə uşaqlarda qeydə alınan travmaların 80-90 faizi "gəzdirici"lərdən qaynaqlanır. Bəzi həkimlərin fikrincə, təzə-təzə yeriməyə başlayan uşaqlarda bu funksional hal xəstəlik, qüsur kimi xarakterizə edilmir. Ancaq bəzən bunun səbəbi valideynlərin uşaqları vaxtından erkən "gəzdirici"lərə qoyması olur. Uşaqların ayaqları tam olaraq yerə çatmadığından, barmaq uclarında hərəkət edirlər, bu da onlarda vərdiş formasına çevrilir.

Həkimlərin dediyinə görə, uşaqların erkən "gəzdiriciyə" qoyulması çox zərərlidir. Bundan başqa, onlar hesab edirlər ki, körpə uşaqların barmaq uclarında gəzməsi ilə "gəzdirici"yə qoyulan uşaqlarda yaranan problem arasında fərq var.

Pediatrlar qeyd edirlər ki, birinci məqam funksional olaraq müəyyən yaşdan sonra keçir, ikinci isə vərdiş formasında qala bilər. Onlar tövsiyə edirlər ki, valideynlər uşaqları 10 ayından tez "gəzdirici"yə qoymasınlar. Uşaqlarda ilk üç yaş pəncənin formalaşma dövrü sayılır. Bəzən dəb, gözəl görünüş üçün valideynlər uşaqlara sərt, bəzəkli ayaqqabılar geyindirməklə, səhvə yol verirlər. Həmin dövrdə uşaqlara yalnız yumşaq ayaqqabıların geyindirilməsi tövsiyə edilir. Sərt ayaqqabılar uşağın pəncəsini sıxır və normal formalaşmasına mane olur.

Nizami rayonu 17 saylı Uşaq Poliklinikasının həkimi, pediatr Sevinc Xasayeva "Bakı-Xəbər"ə bildirdi ki, uşaqlar arasında geniş yayılan bu patologiya əsasən nefroloji problemlə bağlıdır. O qeyd etdi ki, bu əsasən nevroloji problemi olan uşaqlarda geniş müşahidə edilir: "Uşaqlar arasında ayaq barmaqları ucunda yerimə halları geniş yayılıb və bu bir patologiyadır. Bu əsasən uşaqların əsəb sistemində olan oyanıqlıqla bağlıdır. Uşaq müəyyən bir yaş dövründən sonra pəncəsini tam olaraq yerə oturtmalıdır. Əgər ayaq pəncələrini tam oturtmursa, onların əzələ tonusunda da müəyyən problemlər ola bilər. Bunun digər səbəbi də uşaqların vaxtından tez "gəzdirici"yə qoyulmasıdır. Tövsiyə edərdim ki, analar uşaqlarını 10 ayından sonra, ilk addımlarını atdığı zaman "gəzdiriciyə" qoysunlar, bundan əvvəl olmaz. Təəssüf ki, bizim valideynlər uşaqları "gəzdirici"yə vaxtından tez qoyurlar".

S.Xasayevanın sözlərinə görə, bu gün bəzən 6, 7, 8 yaşlı uşaqlarda da bu hal müşahidə edilir. Bunun birbaşa nevroloji problemlə əlaqədar olduğunu deyən S.Xasayeva hesab edir ki, valideynlər bu halın aradan qaldırılması üçün mütləq mütəxəssislərə müraciət etməlidirlər, bu, vaxtında müalicə olunmasa, sonra uşaqda vərdiş kimi qala bilər.

*İradə SARIYEVA*

№ 173 (4071) ■ Qiymәti: 40 qәpik

# BAKI XƏBƏR

www.baki-xeber.com

28-30 SENTYABR 2019-cu il




## "Nar"ın dəstəyilə eşitmə məhdudiyyətli insanlar artıq peşə sahibləridir

**23-29 sentyabr BMT-nin qәrarı ilә Beynәlxalq Eşitmә Mәhdudiyyәtli İnsanlar Hәftәsindә "Nar" eşitmә vә nitq mәhdudiyyәtli insanlar üçün keçirdiyi "Tәlim mәktәbi" layihәsinin yekunları ilә bağlı tәqdimat edib.**

Mobil operator eşitmә mәhdudiyyәtli insanların müxtәlif peşәlәrә yiyәlәnmәsi vә işlә tәmin olunması mәqsәdilә keçirdiyi tәlimlәrin iştirakçılarına sertifikatlar tәqdim edib. Qeyd edәk ki, "Karlara Dәstәk" İctimai Birliyi ilә birgә reallaşan "Tәlim mәktәbi" layihәsi 4 ay davam edib. Tәlimdә ümumilikdә 45 nәfәr iştirak edib vә onlartәcrübәli mütәxәssislәr tәrәfindәn aşpaz, şirniyyat ustası vә motorçu ixtisaslarına yiyәlәniblәr. Layihә eşitmә mәhdudiyyәtli insanların işlә tәmin olunmasına da kömәk edib. Belә ki,artıq iştirakçәların bir neçәsi işlә tәmin olunub.

"Nar" 4 ilә yaxındır ki, eşitmә vә nitq mәhdudiyyәtli insanların müxtәlif peşәlәrә yiyәlәnmәsi mәqsәdilә tәlimlәr tәşkil edir. Bu cür tәlimlәr keçirmәkdә mәqsәdimiz onlara hәyatlarını maddi vә mәnәvi cәhәtdәn tәmin etmәsinәdәstәk olmaqdır. "Nar" olaraq müxtәlif sosial layihәlәr reallaşdırmaqla cәmiyyәtimizә töhfә veririk. "Nar" olaraq insanların sosial hәyatında yararlı şirkәt olduğumuza görә qürur duyuruq", - deyә "Nar"ın İctimaiyyәtlә Əlaqәlәr Departamentinin rәhbәri Əziz Axundov bildirib.

"Karlara Dәstәk" İctimai Birliyinin sәdri Kamran Abasovisә bildirib ki, bu layihәdә iştirak edәnlәr iş bacarıqlarını artırmaqla cәmiyyәtimizә fayda verdiklәrini hiss edәcәklәr: "Karlara Dәstәk" İctimai Birliyinin yaranmasında әsas mәqsәd eşitmә vә nitq mәhdudiyyәtli insanların sosial rifahını yaxşılaşdırmaqdır. "Nar"ın dәstәyilә hәyata keçirilәn "Tәlim mәktәbi" layihәsi eşitmә mәhdudiyyәtli vәtәndaşların istәdiklәri peşәyә yiyәlәnmәlәri vә hәmin ixtisas üzrә işlә tәmin olunmasına böyük tәkandır. Bu layihәni әrsәyә gәtirәn "Nar"a tәşәkkür edirәm".

Fiziki mәhdudiyyәtli insanlara qayğını, tәhsil vә maariflәnmәnin inkişafını, eyni zamanda vәtәnә bağlılığı tәşviq edәn "Nar", son illәr әrzindә hәyata keçirdiyi sosial layihәlәrlә bağlı da tәqdimat edib. Qeyd edәk ki, mobil operator korporativ sosial mәsuliyyәt (KSM) layihәsi çәrçivәsindә cәmiyyәt üçün bir çox әhmiyyәtli layihәlәr reallaşdırıb. "Nar"ın KSM strategiyası haqqında әtraflı mәlumatı nar.az-saytından әldә edә bilәrsiniz.

"Azerfon" şirkәti ("Nar" ticarәt nişanı) 21 mart 2007-ci ildә fәaliyyәtә başlayaraq qısa bir müddәtdә Azәrbaycanda telekommunikasiya vә mobil rabitә sahәsinin aparıcı şirkәtlәrindәn birinә çevrilib."Nar" ticarәt nişanı Azәrbaycanın zәngin mәdәni vә tarixi irsinin çağdaş hәyatla bağlılığının rәmzi olaraq seçilib. "Nar" ölkәdә ilk dәfә olaraq 3G texnologiyasını tәqdim edib vә geniş 4G şәbәkәsini abunәçilәrin istifadәsinә verib. Nar" şәbәkәsi hazırda ölkә әrazisinin 97,5 %-ni (işğal olunmuş әrazilәr istisna olmaqla) әhatә edir vә 8500-dәn artıq baza stansiyası ilә 2,3 milyondan çox abunәçiyә yüksәkkeyfiyyәtli xidmәt göstәrir.

## "Bakcell" BDU-nun tələbə və məzunlarını karyera imkanları ilə tanış edib

**Azәrbaycanın ilk mobil operatoru vә әn sürәtli mobil internet provayderi "Bakcell" şirkәti BDU-nun tәlәbә vә mәzunları üçün tәşkil edilmiş "Karyerada ilk addım" adlı aktiv mәşğulluq tәdbirindә iştirak edib.**




Əmәk vә Əhalinin Sosial Müdafiәsi Nazirliyi yanında Dövlәt Mәşğulluq Xidmәti vә Bakı Dövlәt Universitetinin birgә tәşkilatçılığı ilә BDU-nun tәlәbә vә mәzunları üçün "Karyerada ilk addım" adlı aktiv mәşğulluq tәdbirinin әsas mәqsәdi tәlәbә vә mәzunların әmәk bazarına çıxışının dәstәklәnmәsi, onların işәgötürәnlәrlә ilkin әlaqәlәrinin qurulmasıdır. Tәdbir zamanı universitetin tәlәbә vә mәzunlarına "Bakcell" şirkәtindә mövcud olan vakansiya vә tәcrübә imkanları barәdә mәlumat verilib vә potensial namizәdlәrlә müsahibәlәr keçirilib.

Ölkәnin qeyri-neft sektorunun әn iri investorlarından olan "Bakcell" şirkәti gәnclәrin tәhsilinin vә karyerasının inkişafına dәstәk göstәrir. Şirkәt mütәmadi olaraq müxtәlif tәhsil müәssisәlәri, müvafiq dövlәt strukturları vә tәşkilatlar tәrәfindәn tәşkil olunan karyera sәrgilәrindә fәal iştirak edir. Müsahibәdәn uğurla keçәn gәnclәr ölkәnin әn böyük şirkәtlәrindәn birindә iş vә ya tәcrübә imkanı qazanırlar.

## "Nar" tələbə və məzunlara karyera qurmaqda dəstək olur

**Hәr zaman gәnclәrә vә tәlәbәlәrin öz ixtisaslarına uyğun uğurlu karyera qurmalarına dәstәk olan "Nar" Bakı Dövlәt Universitetindә keçirilәn karyera sәrgisindә iştirak edib.**

"Karyerada ilk addım" adı altında keçirilәn әmәk yarmarkası Əmәk vә Əhalinin Sosial Müdafiәsi Nazirliyi yanında Dövlәt Mәşğulluq Xidmәti vә BDU-nun birgә tәşkilatçılığı ilә baş tutub. "Nar" mövcud vakant iş yerlәri haqqında mәzun vә tәlәbәlәrә mәlumat verib vә sәnәd qәbulu tәşkil edib. Bundan başqa, mobil operator universitetin tәlәbә vә mәzunlarına uğurlu karyera barәdә mәslәhәtlәr verib. Şirkәt tәmsilçilәri ilә birbaşa ünsiyyәtdә olan tәlәbәlәr karyera imkanlarını dәyәrlәndirmәk, hәmçinin, bu şirkәtlәrin tәcrübә proqramlarında iştirak barәdә mәlumat әldә etmәk imkanı qazanıblar. Sәrgidә "Nar" stendinә maraq böyük olub.

Tәdbirdә tәlәbә vә mәzunlara 60 müәssisәdәn, ümumilikdә, 360 vakant iş yeri tәklif olunub."Karyerada ilk addım" adlı aktiv mәşğulluq tәdbirlәri tәlәbә vә mәzunların әmәk bazarına çıxışının dәstәklәnmәsinә, onların işәgötürәnlәrlә ilkin әlaqәlәrinin qurulmasına xidmәt edir.

Qeyd edәk ki, gәnclәrә dәstәk "Nar"ın korporativ sosial mәsuliyyәt (KSM) strategiyasının әsas istiqamәtlәrindәn biridir. "Nar"ın davamlı olaraq hәyata keçirdiyi KSM layihәlәri haqqında әtraflı mәlumatı nar.az saytından әldә etmәk olar.

"Azerfon" şirkәti ("Nar" ticarәt nişanı) 21 mart 2007-ci ildә fәaliyyәtә başlayaraq qısa bir müddәtdә Azәrbaycanda telekommunikasiya vә mobil rabitә sahәsinin aparıcı şirkәtlәrindәn birinә çevrilib."Nar" ticarәt nişanı Azәrbaycanın zәngin mәdәni vә tarixi irsinin çağdaş hәyatla bağlılığının rәmzi olaraq seçilib. "Nar" ölkәdә ilk dәfә olaraq 3G texnologiyasını tәqdim edib vә geniş 4G şәbәkәsini abunәçilәrin istifadәsinә verib. Nar" şәbәkәsi hazırda ölkә әhalisinin 97,5 %-ni әhatә edir vә 8500-dәn artıq baza stansiyası ilә 2,3 milyondan çox abunәçiyә yüksәk keyfiyyәtli xidmәt göstәrir.





**Qoç** - Günün ilk yarısından etibarәn yaxın әtrafınızdakı insanlarla qarşılıqlı anlaşmaya nail olun. Dialoqa meylli insan tәsiri bağışlayın. Çәtin problemlәri emosiyaları gәrmәdәn hәll etmәk olar.



**Buğa** - Yaxın әtrafınızdakı insanlarla münasibәtlәrdә harmoniyanın tәşәkkül tapmasana çalışın. Hәmkarlar, tәrәfdaşlar, şәriklәrlә ünsiyyәt ön plana çıxacaq. İşdә rәhbәrliklә müzakirәlәr aparın.



**Əkizlər** - Faydalı mәlumat әldә etmәyә can atın. İnformasiya axını intensiv olacaq. İrәlilәyin, uğurlara nail olmaq üçün tәrәfdaşlığı güclәndirin. Oxuduqlarınızı vә eşitdiklәrinizi sistemlәşdirin.



**Xərçəng** - İşlәrinizdә tәrәqqiyә vә yaxşı nәticәlәrә nail olmaq istәyirsinizsә, kollektiv fәaliyyәtә üstünlük verin. Daşınmaz әmlak mәsәlәlәri ilә daha sıx vә aktiv şәkildә mәşğul olmaq olar.



**Şir** - Yaxın әtrafınızdakı insanlarla aktiv tәmaslarda olun. Əlaqәlәri yenilәyin vә aktivlәşdirin. Hadisәlәrә tәsir imkanlarına malik insanlarla müzakirәlәri sәngitmәyin. Yeni tәrәfdaş vә ya şәriklәr arayın.



**Qız** - Faydalı mәlumatlar әldә etmәyә can atın. Müqavilәlәri vә sazişlәri dәqiqlәşdirin, ödәnişlәrdә vә hesablamalarda diqqәtli olun. Anlaşmaların mübahisәli mәqamlarını tәhlil edin.



**Tərəzi** - Tarazlığı qoruyun, mütәnasibliyi poza bilәcәk radikal addımlar atmayın. Müstәqilliyә ifrat dәrәcәdә can atsanız, situasiyaya kobud müdaxilәlәrә rәvac verәcәksiniz. Pedant olun, amma aradabir yaradıcılıq axtarışlarına çıxın.



**Əqrəb** - Danışıqlar vә müzakirәlәr üçün әlverişli zamandır. Sәnәdlәşdirmәdә dәqiq olun, sәhvlәrә yol vermәyin. Birgә layihәlәrin hәyata keçirilmәsindә detallara fikir verin. Aqressiv olmayın.



**Oxatan** - Mәhsuldar vә yaxşı gündür. Ünsiyyәt әvәzinә işә üstünlük verin. Yaxın әtrafınızdakı insanların maraqlarını nәzәrә alın. Hәr şeyi şәxsi mәnafeyә qurban vermәyin. Ambisiyalarınızda ifrata varmayın.



**Oğlaq** - Mәqsәdlәri konkretlәşdirin, hәdәflәri tәftişә uğradın. Karyera müstәvisindә inkişaf, gәrәkli çevrәlәrdә әlaqәlәrin möhkәmlәnmәsi, peşәkar biliklәrlә bacarıqların artırılması, ümumi informatik sәviyyәnin yüksәldilmәsi - bütün bunlar aktualdır.



**Dolça** - Biliklәriniz, bacarıqlarınız, mәlumatlarınızdan yararlanın. Uzunmüddәtli tәrәfdaşlığa, yeni layihәyә başlamaq olar. Tәrәfdaş vә şәriklәrlә tәmaslarda әdalәtli, vicdanlı davranışın әn yaxşı siyasәt olduğunu unutmayın.



**Balıqlar** - İntizamlı olmasanız, görәcәyiniz işlә bağlı yetәrincә mәlumatlar әldә etmәsәniz, gün pis başlayacaq. Uğursuzluğa düçar olmamaq üçün diqqәtli vә sayıq davranın. Hәr şey ani qaydada әldә olunmur.

*Qoroskop Rusiya vә Qәrb astroloqlarının proqnozları әsasında hazırlanıb*

## Mətbəxin divarında asılan 6 milyonluq "sərvət"...

**Parisdә yaşayan yaşlı qadının evindәki tablonun sәrvәt dәyәrindә olduğu aşkarlanıb.**



"Axşam.az" bildirir ki, o, illәrdir mәtbәxinin divarında asılan tablonu mütәxәssislәrә aparıb. Əsәr üzәrindә bir sıra testlәr aparıldıqdan sonra onun 13-cü әsrdә yaşayan mәşhur florensaiyalı rәssam Cimabueyә aid olduğu bildirilib. Tablonun dәyәrinin 6 milyon avro olduğu bildirilir. Adının açıqlanmasını istәmәyәn qadın onu hәrracda satacağını bildirib.

*Hazırladı: Ramil QULİYEV*

Baş redaktor: Aydın Quliyev

Baş redaktorun müavini: Tahir Tağıyev

Redaksiyanın ünvanı: Bakı şәhәri, Mәtbuat pr. 529-cu mәhәllә, 6-cı mәrtәbә

Tel-faks: 510-87-40; 510-87-38; 510-87-39

e-mail: azer22@mail.ru

Reyestr № 0106-P219-45846

Qәzet hәftәdә 5 dәfә çıxır. (Bazar vә bazar ertәsindәn başqa). «BZ»-dә çap olunur.

Sifariş: №2514 Tiraj: 3050

Qәzetdә «Olaylar» vә «Trend» informasiya agentliklәrinin materiallarından istifadә edilir.

Reklam mәtninә görә qәzet mәsuliyyәt daşımır.